## Xocavənddə ekskavator minaya düşüb

Türkiyə vətəndaşı xəsarət alıb



**Xocavənddə Türkiyə vətəndaşının idarə etdiyi ekskavator minaya düşüb.**

Bu barədə Xocavənd Rayon Prokurorluğundan məlumat verilib.

Belə ki, iyulun 14-ü saat 14 radələrində Xocavənd rayonunun işğaldan azad edilmiş Tağaverd kəndi ərazisində Türkiyə Respublikasının vətəndaşı 1987-ci il təvəllüdlü Yalpiri Yıldırayın minaya düşməsi ilə bağlı rayon prokurorluğuna məlumat daxil olub.

İlkin araşdırmalarla həmin ərazidə təmir tikinti işləri aparılan zaman tikinti şirkətində ekskavator sürücüsü kimi çalışan Yalpiri Yıldırayın minaya düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alması müəyyən edilib. Hazırda faktla bağlı Xocavənd Rayon Prokurorluğunda araşdırma aparılır.

## Rusiya Vinnitsa şəhərinə raket zərbələri endirib

22 nəfər ölüb, 90 nəfər yaralanıb



**Rusiya hərbi qüvvələrinin Ukraynanın Vinnitsa şəhərinə raket zərbələri endirməsi nəticəsində 22 nəfər ölüb, 90 nəfər yaralanıb.**

APA Unian.net-ə istinadən xəbər verir ki, ölənlərdən 3-ü uşaqdır.

Rusiyanın atdığı "Kalibr" raketlərindən birinin zabitlər evinə, digərinin isə hərbi komissarlığın ərazisinə düşdüyü xəbər verilir.



## Ordumuz daha da güclənəcək

Azərbaycan müdafiə və milli təhlükəsizlik xərclərini 21 faiz artırıb

**2021-ci ildə Azərbaycanın dövlət büdcəsindən müdafiə və milli təhlükəsizliyə 4 541,613 milyon manat xərclənib.**

"Şərq" bu barədə Prezident İlham Əliyevin təsdiqlədiyi "2021-ci il dövlət büdcəsinin icrası haqqında" qanuna istinadən xəbər verir.

Sənədə əsasən, bu, 2020-ci illə müqayisədə 20,9% çoxdur.

Müdafiə və milli təhlükəsizlik xərclərinin 1 838,524 milyon manatı (2020-ci illə müqayisədə 13% çox) müdafiə qüvvələrinə, 253,824 milyon manatı (5,5% çox) milli təhlükəsizliyə, 341,525 milyon manatı (22,5% çox) sərhəd xidmətinə, 3,365 milyon manatı (9,2% az) müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlara, 2 104,376 milyon manatı (31,2% çox) müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlərə yönəldilib.


№ 122 (5644), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 15 iyul 2022-ci il (cümə)




## "Azərbaycan Ermənistanla sülh müqaviləsi imzalamaq istəyindədir"

Prezident İlham Əliyev Makrona təbrik məktubunda Cənubi Qafqazdakı geosiyasi reallıqlara diqqət yönəldib

**Prezident İlham Əliyev Fransa Respublikasının Prezidenti Emmanuel Makrona təbrik məktubu ünvanlayıb.**

*Təbrikdə deyilir:*

"Hörmətli cənab Prezident,

Fransa Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Bu il Azərbaycan-Fransa dövlətlərarası əlaqələrinin tarixində əlamətdar ildönümüdür. Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd etdiyimiz cari ildə biz ötən dövr ərzində əldə etdiyimiz nailiyyətlərə nəzər salır, iqtisadiyyat, energetika, mədəniyyət, təhsil və digər sahələrdə formalaşmış səmərəli əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi imkanlarını araşdırırıq.

(səh.2)

## Türkiyə səfiri Polad Həşimovla bağlı paylaşım edib



**Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağcı Azərbaycanın Milli Qəhrəmanı, şəhid general-mayor Polad Həşimovla bağlı paylaşım edib.**

Səfir bu barədə "Twitter"də bildirib.

"Qarabağ Zəfərinin fitilini alovlandıran qəhrəman komandir Polad Həşimovun şəhid olmasının ildönümündə xatirəsini rəhmətlə anırıq. Səmayə anaya, qardaşı, bacısı, həyat yoldaşı, övladları, silah yoldaşları, qəhrəman Azərbaycan Ordusuna və xalqına başsağlığı veririk, cansağlığı arzulayırıq", - diplomat qeyd edib.

# Tehran sammiti Putinə hava - su kimi lazımdır

## Liderlər Ukrayna savaşının yaratdığı çətinlikləri çözəcəklər



Rusiya Qərbin təzyiqlərindən sığortalanmaq üçün Türkiyə və İranın yardımına ehtiyac duyur

**İyulun 19-da Tehranda İran, Türkiyə və Rusiya prezidentlərinin - İbrahim Rəisi, Rəcəb Tayyib Ərdoğan və Vladimir Putinin - üçtərəfli sammiti baş tutacaq.**

Regionun konfiqurasiyasını özünəməxsus tərzdə şəkillədirməyə çalışan, imperiya ənənəsi olan bu 3 ölkənin prezidentinin gündəliyində Suriya məsələsi və Rusiya-Ukrayna müharibəsinin gedişatları əsas müzakirə predmeti olacaq.

Ekspertlərin fikrincə, Rusiya-Ukrayna müharibəsinin gedişatları Suriyada nüfuz dairələrinin yenidən bölüşdürülməsi və ya dəqiqləşdirilməsini liderlərin gündəminə gətirir.

(səh.2)

## Pandemiya hələ bitməyib

Yoxluxma sayı artarsa, qadağalar tətbiq olunacaq



**COVID-19 infeksiyasının "Omikron" ştamı yenidən dünyada dominantlığ edir.**

Virusa yoluxanların sayının günügündən artması səlahiyyətli qurumları həyəcan təbili çalmağa vadar edib. Artan koronavirus xofu fonunda Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) payız fəsli üçün "buster" doza ilə bağlı tövsiyələr verib.

(səh.3)



## Ermənistan Silahlı Qüvvələrinə yeni baş qərargah rəisi təyin olunub

**Ermənistan Silahlı Qüvvələrinə yeni baş qərargah rəisi təyin olunub.**

"Report" xəbər verir ki, bu barədə yerli mətbuat məlumat yayıb.

Məlumata görə, Ermənistan Silahlı Qüvvələrinə yeni baş qərargah rəisi vəzifəsini Edvard Asryan icra edəcək.

Qeyd olunur ki, Ermənistan Prezidenti Vaaqn Xaçaturyan bu barədə fərman imzalayıb.

*Sənəddə onun 5 il müddətinə bu vəzifəni icra edəcəyi göstərilir.*

## Yoluxma sayı 174 nəfərə yüksəldi

Azərbaycanda 3 nəfər koronavirusdan vəfat edib




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 174 yeni yoluxma faktı qeydə alınıb, 62 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 3 nəfəri vəfat edib. Azərbaycanda indiyədək ümumilikdə 794 092 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 831 nəfər müalicə olunaraq sağalıb, 9 722 nəfər vəfat edib, aktiv xəstə sayı 539 nəfərdir. Ölkədə son sutka ərzində 2 911, hazırkı dövrədək isə 6 994 425 test aparılıb.

## Göyçayda 15 nəfər yas mərasimində zəhərlənib

Zəhərlənən şəxslərdən bir neçəsi uşaqdır



**Göyçay rayonunda qidadan kütləvi zəhərlənmə qeydə alınıb.**

**Hadisə rayonun Hacıağabəyli kənd sakini Azər Quliyevin anasının yas mərasimində olub.**

Axşam saat 20:00 radələrində məclis iştirakçılarından təxminən 15-ə yaxın şəxsin halı qəfildən pisləşib.

İshal və qusma əlamətləri olan bu insanlar təcili olaraq Göyçay Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb.

Hazırda onların müayinə və müalicəsi üçün tədbirlər görülür.



## Bakı Paşinyanın son siyasətini ciddi izləməlidir

İrəvan Ankara ilə yaxınlaşaraq, daxildə müxalifəti zəiflədib Azərbaycanla sülhə nail olmağa çalışacaq

(səh.3)



## Tovuz döyüşləri maraqlı qüvvələrə bir dərs oldu

Azərbaycanda əsgərlərdən öndə vuruşan, onları qorumaq üçün öz canlarından keçən yeni zabit nəsli yetişib

(səh.4)



# "Azərbaycan Ermənistanla sülh müqaviləsi imzalamaq istəyindədir"

## Prezident İlham Əliyev Makrona təbrik məktubunda Cənubi Qafqazdakı geosiyasi reallıqlara diqqət yönəldib

**Prezident İlham Əliyev Fransa Respublikasının Prezidenti Emmanuel Makrona təbrik məktubu ünvanlayıb.**

*Təbrikdə deyilir:*

"Hörmətli cənab Prezident,

Fransa Respublikasının milli bayramı münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edir, ən xoş arzularımı yetirirəm.

Bu il Azərbaycan-Fransa dövlətlərarası əlaqələrinin tarixində əlamətdar ildönümüdür. Ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd etdiyimiz cari ildə biz ötən dövr ərzində əldə etdiyimiz nailiyyətlərə nəzər salır, iqtisadiyyat, energetika, mədəniyyət, təhsil və digər sahələrdə formalaşmış səmərəli əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi imkanlarını araşdırırıq. Hesab edirəm ki, müxtəlif istiqamətlər üzrə qarşılıqlı faydalı əməkdaşlığımızın inkişaf etdirilməsi üçün perspektivlər vardır.

Cənubi Qafqazda bərqərar olmuş yeni geosiyasi reallıq davamlı sülh və regional iqtisadi əməkdaşlıq üçün əlverişli zəmin yaratmışdır. Torpaqlarının 30 illik işğalına son qoyan Azərbaycan müharibə səhifəsini çevirmək, Ermənistanla münasibətləri normallaşdırmaq və sülh müqaviləsi imzalamaq istəyindədir. Beynəlxalq hüquqa söykənərək tərəfimizdən təqdim olunan beş prinsip əsasında Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması prosesinə Fransanın dəyərli töhfə verə biləcəyinə inanırıq.

İşğaldan azad edilmiş ərazilərdə Ermənistan tərəfindən basdırılmış minalar burada apardığımız bərpa və yenidənqurma işlərinə, bölgənin sosial-iqtisadi reinteqrasiyasına ən böyük əngəl olaraq qalmaqdadır. 2020-ci il noyabrın 10-dan indiyədək 220-dən çox şəxs mina hadisələri nəticəsində həlak olmuş və ya ağır xəsarət almışdır. Biz ərazilərimizin minalardan təmizlənməsi prosesinə Fransanın verdiyi töhfəni təqdir edir, Ermənistan-Azərbaycan münaqişəsi zamanı itkin düşmüş 4000-ə yaxın soydaşımızın taleyinin aydınlaşdırılması məsələsində də ölkənizin lazımi dəstək göstərəcəyinə ümidvarıq.

Dərin hörmət və ehtiramlarımı izhar edirəm".

# İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyi qeyd ediləcək



**Prezident İlham Əliyev İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, 2022-ci ildə İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyi tamam olur.

Azərbaycanlıların tarixən köklü yaşadığı mühüm elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi tanınan İrəvan mahalında 1882-ci ildən etibarən fəaliyyətə başlayan Teatr sonrakı dövrlər ərzində özünün zəngin repertuarında milli ədəbi-bədii fikrin nailiyyətlərinə daim xüsusi yer verərək tamaşaçıların rəğbətini qazanmış və mədəniyyət salnaməmizə yaddaqalan səhifələr yazmışdır. Azərbaycanın görkəmli səhnə ustalarından bir çoxunun yaradıcılıq taleyi peşəkar milli teatrımızın ayrılmaz tərkib hissəsinə çevrilən bu qocaman sənət ocağı ilə sıx bağlıdır.

Keşməkeşli yol keçmiş və dəfələrlə erməni vandalizminə məruz qalmış Teatrın salnaməsi əzəli Azərbaycan torpaqlarındakı həmyerlilərimizin tarixi taleyinin bir parçasıdır. 1918-1920-ci illərdə ermənilər İrəvanda kütləvi qırğınlar törədərkən aktyor truppası mühacirətə üz tutan Teatr öz fəaliyyətini 1922-ci ildə bərpa etmiş, Azərbaycan ziyalılarının fədakarlığı sayəsində 1928-ci ildə müvafiq qərarla dövlət teatrı statusunu almış, 1935-ci ildən isə böyük dramaturq Cəfər Cabbarlının adını daşımışdır.

Azərbaycanlıların Ermənistandan 1948-1953-cü illərdəki deportasiyasından da acı nəsibini alaraq, fəaliyyətini yalnız 1967-ci ildə bərpa edən İrəvan Dövlət Azərbaycan Dram Teatrı 1980-ci illərin sonlarında ermənilərin yenidən başlatdığı etnik təmizləmə və təcavüzkarlıq siyasəti nəticəsində yurddaşlarımızla bərabər didərgin düşmüş, qaçqın həyatı yaşamalı olmuşdur.

1989-cu ildən Bakı şəhərində məskunlaşan Teatr ötən müddətdə ənənəvi repertuarını rəngarəng mövzularda yeni-yeni əsərlərlə daha da genişləndirmiş və bir sıra yaradıcılıq uğurları qazanmışdır.

Sərəncamla İrəvan Dövlət Azərbaycan Dram Teatrının xalqımızın mədəni-ictimai həyatında özünəməxsus rolunu nəzərə alaraq qərara alınır:

- Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi İrəvan Dövlət Azərbaycan Dram Teatrının 140 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
- Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# I və IV ixtisas qrupları üzrə qəbul imtahanları bir gündə keçiriləcək



**Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən 20 və 21 iyul tarixlərində keçirilməsi nəzərdə tutulan I və IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanları qeydiyyatdan keçmiş abituriyentlərin sayı nəzərə alınaraq yalnız bir gündə - iyulun 21-də təşkil olunacaq.**

DİM-dən verilən xəbərə görə, imtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Sumqayıt, Şəki, Bərdə, Göyçay, Şirvan, Salyan, Lənkəran və Xaçmazda keçiriləcək.

Abituriyentlər "İmtahana buraxılış vərəqəsi"ni çap edə bilərlər.

"İmtahana buraxılış vərəqəsi"ndə imtahanın keçiriləcəyi tarix, şəhər (rayon), bina, zal, başlanma vaxtı və abituriyentin imtahan binasına gəlmə vaxtı və s. məlumatlar qeyd olunub.

*Məlumat üçün qeyd edək ki, imtahanlar saat 10:00-da başlanacaq.*

**İyulun 14-də Nizami Kino Mərkəzində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin polkovniki, Milli Qəhrəman İlqar Mirzəyev haqqında çəkilmiş "Artilleriyanın atası" sənədli filminin təqdimatı olub.**




# "Artilleriyanın atası"

## Film Tovuz döyüşlərinin ikinci ildönümünə həsr olunub

Filmin rejissoru və ssenari müəllifi Kamalə Musazadə, operatoru Soltan Abdullayev, montajçıları Kamalə Musazadə və Sabir Əskərzadə, prodüseri isə Nazim Hüseynovdur.

Jurnalistlərə müsahibə verən Kəmalə Musazadə filmin çəkilişləri ilə bağlı məlumat verib: "Bizim studiyada Polad Həşimovla bağlı film çəkildiyi üçün mən onun döyüş yoldaşı İlqar Mirzəyev haqda film çəkməyi düşündüm. Onun döyüş yoluna, şəxsi keyfiyyətlərinə baxanda çox heyrətlənirdim. İlqar Mirzəyev Aprel döyüşlərində artilleriya komandiri olub. Biz çəkilişləri həmin artilleriya qurğularının yerləşdiyi ərazidə, həmçinin Tovuz döyüşləri zamanı onun şəhid olduğu yerdə apardıq. "Qara qaya" zirvəsində bu hadisə baş verəndə İlqar Mirzəyevlə birgə döyüş yoldaşı Təbriz Kərimov da orada idi. Biz onların qurumayan qanını lentə almışdıq. Təbriz Kərimov ağır yaralansa da, sağ qalıb və öz qanını filmin nümayişi zamanı görəndə çox təsirləndi".

Filmin nümayişindən əvvəl çıxış edən Dövlət Film Fondunun direktoru, Əməkdar incəsənət xadimi Cəmil Quliyev bildirib ki, 6 aydan sonra Azərbaycan xalqı rəşadətli Qələbənin ikinci ildönümünü qeyd edəcək. O, qeyd edib ki, Azərbaycan Ordusunun qazandığı Qələbə incəsənətin bütün növlərində əks olunmalıdır.

Sonra film nümayiş etdirilib.

Film Tovuz döyüşlərinin ikinci ildönümünə həsr olunub. 2020-ci il iyulun 12-14-də ermənilərin növbəti təxribatı nəticəsində Tovuz döyüşlərində Polad Həşimov və İlqar Mirzəyevlə birlikdə 12 nəfər şəhid olub.

*Qeyd edək ki, Polad Həşimov 1975-ci ildə Qəbələ rayonunun Vəndam qəsəbəsində anadan olub. 1976-cı ildə Həşimovlar ailəsi Qəbələ rayonundan Sumqayıt şəhərinə köçüb və burada yaşamağa başlayıblar. P.Həşimov Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun komandir müavini - Qərargah rəisi olub.*

*Bakıda, Sumqayıtda və Qəbələdə küçələrdən birinə Polad Həşimovun adı verilib. Bundan başqa, Türkiyənin Osmanqazi rayonunda Polad Həşimovun adını daşıyan park salınıb.*

*İlqar Mirzəyev isə 1973-cü ildə Gürcüstanın Qardabani rayonunda anadan olub. O, Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun artilleriya rəisi vəzifəsində çalışıb.*

*Prezident İlham Əliyevin 2020-ci ilin dekabrın 9-da imzaladığı Sərəncamla Polad Həşimova və İlqar Mirzəyevə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.*

*Polad Həşimov və İlqar Mirzəyev 2020-ci il iyulun 15-də İkinci Fəxri xiyabanda dəfn olunublar.*

# Çinə xəbərdarlıq...

## Vaşinqton Tayvanla bağlı siyasətini dəyişməyəcək



**Çinin Fransadakı səfiri Lu Şae yerli nəşrlərdən birinə verdiyi açıqlamada ölkəsinin Tayvan adasını hərbi yolla geri qaytarmağa hazır olduğunu bildirib. Böyük ehtimalla səfir Pekinin təlimatıyla yerli nəşrlərdən birinə belə bir açıqlama verib.**

Siyasi ekspertlərin fikrincə, Pekin səfirlərinin diliylə bu cür açıqlamalar vasitəsilə ABŞ və Avropanı Tayvanla bağlı qərarını həyata keçirməyə başlayacağına hazırlamaq istəyir. Amerika hərbi təyyarələri isə Tayvan adası ətrafında kəşfiyyat uçuşlarını davam etdirirlər. Son aylarda bu uçuşların sayı artıb və bu durum Pekini ciddi narahat edir. Pekin bu uçuşların bölgədə vəziyyəti gərginləşdirdiyi qənaətindədir. Çin Müdafiə Nazirliyi açıqlama yayaraq Pentaqonu Tayvana hərbi dəstək verməkdən imtina etməyə çağırıb.

**Politoloq Elxan Şahinoğlu vurğulayıb ki, Vaşinqton Tayvanla bağlı siyasətini dəyişməyəcək. O xatırladıb ki, ABŞ Prezidenti Co Bayden 23 mayda verdiyi açıqlamada, Tayvana hücum olacağı halda ABŞ-ın adanın müdafiəsində iştirak edəcəyini bildirib. Bu, Vaşinqtonun Pekinə ciddi xəbərdarlığı idi:** "Mövcud vəziyyət Avropa İttifaqını da narahat edir. Çünki Çin Tayvana qarşı hərbi əməliyyata başlayarsa Avropa İttifaqı Rusiyanın timsalında olduğu kimi Çinə qarşı da sərt sanksiyalar qəbul etmək məcburiyyətində qalacaq. Aparılan sorğular göstərir ki, Çində fəaliyyət göstərən Avropa şirkətlərinin dörddə bir hissəsi bu ölkəni tərk etmək barədə düşünür. Bu həm Çinin Tayvana qarşı mümkün hərbi hücumu, həm də Pekinin koronavirusa qarşı mübarizə üsulları ilə əlaqəlidir. Pekin koronavirusla mübarizədə ən sərt üsullardan yararlanır. Qapanmalar Çində çalışan Avropa şirkətlərinin fəaliyyətinə mənfi təsir edib. Çindəki Avropa şirkətlərinin təxminən 20 faizi kapitallarını Cənubi Asiyanın digər ölkələrinə yönəltməyi planlaşdırır".

*Analitik vurğulayıb ki, Baydenin Honkonqdakı vəziyyətlə əlaqədar Çinə qarşı sanksiyalar rejimini daha bir il uzatması diqqətçəkən qərardır:* "Ağ Evin yaydığı bəyanatda Çinin Honkonqun muxtariyyətini pozmağa yönəlmiş hərəkətləri ABŞ-ın milli təhlükəsizliyi, xarici siyasəti və iqtisadiyyatı üçün təhlükə kimi qiymətləndirilib. Çin parlamenti 2020-ci ilin yayında Honkonqda milli təhlükəsizliyin təmin edilməsi haqqında qanun qəbul edib. Pekin bu qanunun terrorizm, separatizm, dövlət hakimiyyətinə zərbə vurmaq, xarici qüvvələrlə sövdələşmə təhlükələrinə qarşı mübarizə məqsədi daşıdığını vurğulayıb. Lakin Ağ Ev bunu Honkonqun muxtariyyətinin pozulması kimi qəbul edib".

**İsmayıl**

# Azərbaycan-Litva əlaqələrində yeni dönəm başlayır

## İki ölkə arasında beynəlxalq təşkilatlar səviyyəsində səmərəli əməkdaşlıq var



**Dünən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov ölkəmizdə səfərdə olan Litva-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Kazis Starkeviçyusun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Səməd Seyidov ölkələrimiz arasında çox yaxşı münasibətlərin qurulduğunu deyib.**

O, Litva ilə Azərbaycan arasında münasibətlərin genişləndirilməsində hər iki ölkə prezidentlərinin və parlament sədrlərinin siyasi iradələrinin əsaslı rol oynadığını qeyd edib: "Ölkələrimiz bütün sahələr üzrə əməkdaşlıq edir. Əlaqələrimiz ancaq iqtisadi sahələri əhatə etmir. Eyni zamanda, beynəlxalq təşkilatlar səviyyəsində də səmərəli əməkdaşlıq var. Hər iki ölkənin səfiri Azərbaycan-Litva əlaqələrinin inkişafı üçün çox mühüm işlər görür və nəticələr göz qabağındadır". S.Seyidov ölkəmizə münasibətlərinə, adekvat olmayan, yalançı, hətta hərdən şüurlu şəkildə təhrikedici hərəkətlərin qarşısının alınmasında göstərdiyi həmrəyliyə görə Litva Respublikasına təşəkkürünü bildirib. O qeyd edib ki, bu gün əgər üç Zaqafqaziya ölkəsini müqayisə etsək, daha çox müstəqil, daha çox Avropa ilə əməkdaşlığa can atan, öz partnyorları ilə açıq və səmimi ölkə kimi Azərbaycan görünür.

**Kazis Starkeviçyus 30 illik erməni işğalına son qoyması münasibəti ilə Azərbaycan xalqını təbrik edib. Bildirib ki, artıq işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə işləri aparılır.** Ermənistanın Azərbaycan ərazilərini işğalı, mülki insanların, obyektlərin raket atəşinə tutulması beynəlxalq hüquq və normalara sığmır.

Azərbaycan-Litva parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri Nəsib Məhəməliyev ölkəmizin Avropa İttifaqının 9 üzvü ilə strateji əməkdaşlıq əlaqələrinin olduğunu qeyd edib. Həmçinin bildirib ki, Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artmaqdadır.

Azərbaycan Prezidenti İlham Əliyevin Brüsseldə Şarl Mişel və Nikol Paşinyanla görüşlər keçirdiyini deyən Nəsib Məhəməliyev diqqətə çatdırıb ki, dövlətimizin başçısı sülh və təhlükəsizliyin təmin olunması istiqamətində gərgin səylər göstərir. Amma Ermənistanda hələ də revanşist qüvvələr mövcuddur. Regionda təhlükəsizliyin təmin olunması baxımından sülh müqaviləsinin imzalanması mühüm şərtdir. Söhbətdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Görüşdə ölkəmizin Litvadakı səfiri Tamerlan Qarayev və digər rəsmi şəxslər iştirak ediblər.

**İsmayıl**



# Tehran sammiti Putinə hava - su kimi lazımdır

## Liderlər Ukrayna savaşının yaratdığı çətinlikləri çözəcəklər

İsmayıl Qocayev

**İyulun 19-da Tehranda İran, Türkiyə və Rusiya prezidentlərinin - İbrahim Rəisi, Rəcəb Tayyib Ərdoğan və Vladimir Putinin - üçtərəfli sammiti baş tutacaq. Regionun konfiqurasiyasını özünəməxsus tərzdə şəkilləndirməyə çalışan, imperiya ənənəsi olan bu 3 ölkənin prezidentinin gündəliyində Suriya məsələsi və Rusiya-Ukrayna müharibəsinin gedişatları əsas müzakirə predmeti olacaq.**

Ekspertlərin fikrincə, Rusiya-Ukrayna müharibəsinin gedişatları Suriyada nüfuz dairələrinin yenidən bölüşdürülməsi və ya dəqiqləşdirilməsini liderlərin gündəminə gətirir. Məqsəd gələcək üçün strateji rıçaqları gücləndirmək və Rusiya ilə İranın Suriyadakı rəqibi Türkiyə ilə koordinasiya yaratmaqdır. Digər yandan Rəisi-Ərdoğan-Putin üçlüyü Rusiya-Ukrayna müharibəsinin yaratdığı acınacaqlı iqtisadi-humanitar panoramanın öz ölkələrinə təsirlərini minimallaşdırmaq üçün formullar axtaracaqlar.

**Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, Moskva və Tehranın Suriyada qarışıqlığın yoluna qoyulması üçün ortaya qoyduğu təhlükəsizlik modeli Ankaranın maraqları ilə ziddiyyət təşkil edir.** Analitikin sözlərinə görə, Ankara ilə Kremlin Suriyadakı bəzi maraqları az da olsa vahid nöqtədə birləşir: "O baxımdan deyə bilərik ki, bu ölkə daha çox Türkiyə və İranın bir-birinə əks mövqeyi arasında sıxışır. Vladimir Putin isə bu nöqtədə bir növ seyrçi statusda dayanıb, özünü problemli məsələlərin həllində əhəmiyyətli status qazanan lider kimi göstərməyə çalışır. Çünki Putinin indiki hədəfində Suriyada kəskin qarşıdurma yaratmaq meylindən çox ziddiyyətlərin aradan qaldırılması və üç ölkə arasında maraq yaratmaq siyasəti dayanır. Putinin bu cür obrazı onu Qərbin tədbirlərinə qarşı yeni mexanizm formalaşdırmağa və Türkiyə ilə İrandan həlledici yardım almağa çıxış imkanı qazanmağa doğru sürükləyir. Qərb demişkən, Putinin təkanlarını bu həftə Yaxın Şərq regionuna səfər edəcək ABŞ Prezidenti Cozef Baydenin səylərinə qarşı qarşılıq kimi dəyərləndirmək olar".

**A.Kərimov hesab edir ki, Qərbin Ukraynanı sürətlə genişmiqyaslı şəkildə silahlandırması Rusiya qoşunları üçün problemlər yaradır:** "Rusiya da alternativ mənbə axtarışlarına baş vuraraq özünün hərbi arsenalında xarici "qonaqlar"ı daxil etməyi hədəfləyir. Tehran sammiti Putinə Rusiyaya qarşı Qərb tərəfindən həyata keçirilən total həmlələrin boğulması üçün hərbi-iqtisadi dəstəyi gücləndirmək fürsəti təqdim edir. Bu mənada düşünmək olar ki, Putin Rəisi ilə görüşündə İrandan dronlar almaq üçün danışıqlar aparacaq. Ərdoğan ilə müzakirələrdə isə Putin ən azından Türkiyənin Ukraynaya silah tədarükünü limitləməsini xahiş edəcək. Gələk Türkiyə faktoruna, Tehran zirvəsi Ərdoğana da Rusiya-Ukrayna müharibəsinin sülh yolu ilə nizamlanmasındakı vasitəçilik rolunu gücləndirməyə kömək edəcək".

### Rusiya Qərbin təzyiqlərindən sığortalanmaq üçün Türkiyə və İranın yardımına ehtiyac duyur

*Müsahibimiz vurğulayıb ki, Türkiyə ilə Rusiya Qara dənizdə sərhədlərə malik olduğundan həmin region üzrə təhlükəsizliyin təmini məsələsi də Ərdoğanın Putinə deyəcəyi tezislər içərisində yer alacaq:* "Türkiyə lideri taxıl ixracı ilə bağlı yaranan böhrandan çıxış yolu axtarmaq üçün Putinə inandırıcı düsturlar verəcək. Moskvanı iqtisadi-humanitar böhran yaratmaqdan çəkindirməyə çalışacaq. Mövzunu bir az fərqli aspektlər üzrə Rusiya-İran, Türkiyə-İran münasibətləri kontekstində də inkişaf etdirmək ehtiyacı yaranır. Rusiya ilə İran Qərblə qarşıdurmada ümumi maraqları bölüşür. Hərçənd, Moskva İranın nüvə siyasətinə dair baxışında Qərblə eyni mövqeyə malikdir. Nüvə məsələsini kənara qoyaraq bildirək ki, iki ölkənin sanksiyalar altında əzilməsi onları bir-birinə yaxınlaşdıraraq münasibətləri strateji tərəfdaşlıq həddinə çatdırıb. Bununla belə, Ukraynada davam edən müharibə səbəbilə iqtisadi itkilərə məruz qalan Rusiya enerji bazarlarındakı neft satışını artırmaqla İranı kənara itələyir. Vəziyyətin bu minvalla getməsi, yəni neft satışı uğrunda rəqabətin nəzarətdən çıxması Rusiya-İran münasibətlərini gərginləşdirə bilər. Putinlə Rəisi gərginlik yaranmaması üçün ortaq məxrəcə gəlməyi hədəfləyirlər. Ankara-Tehran münasibətlərindəki neqativ tendensiyalara gəlincə, iki dövlətin maraqları Cənubi Qafqazda rəqabətə söykəndiyi halda, İraq və Suriyada kəskin maraq toqquşması ilə müşayiət edilir. Türkiyə ilə İranın "döyüşü" təkcə bu regionlarla məhdudlaşmır. Transsərhəd sular və bənd tikintisi ilə bağlı mübahisələr də ikitərəfli əlaqələri gərginləşdirir. Türkiyə Suriyanın şimalında PKK terror təşkilatına qarşı əməliyyatlara hazırlaşır, amma Rusiya və İran iyun ayındakı Astana platformasının iclasında buna dəstək verməyib".

*Aqşin Kərimov qeyd edib ki, Türkiyə 30 kilometr dərinliyində təhlükəsizlik zonası yaratmaqda israrlıdır və getdikcə bu inadkarlığını praktiki səviyyədə nümayiş etdirəcəyini bəyan edir:* "Türkiyənin bu istiqamət üzrə İranla razılıq əldə edəcəyi çətin görünür. Bir zamanlar PKK Türkiyə ilə İranın ortaq düşməni idi. Ankaranın Suriyada dayaqlarını bərkitməsi İrana ağır zərbədir. Rusiya isə sadəcə "mənim nəzarət zonama girmə və eskalasiya səviyyəsinə qaldırma" prinsipi ilə Türkiyə ilə anlaşmaya gedə bilir. Rusiyanın Suriya coğrafiyasında Türkiyəyə güzəştə getməyə səbəbləri var. Rusiya Ukraynadakı müharibə səbəbilə üzləşdiyi hərbi itkiləri Suriyadakı qüvvələri ilə balanslaşdırmağa cəhd edə bilər. Bu isə Moskvanın Suriyada boşluq buraxması deməkdir ki, həmin boşluğu da Ankara və Tehran doldurar. Rusiya və İran Suriya hökumətini dəstəkləsə də, Moskva Tehrana əhəmiyyətli fürsətlər buraxmaz və hətta indiki şəraitdə Kremlin Ankara ilə maraqları bir-birinə olduqca yaxınlaşır. Yəni Ukraynadakı müharibə Suriyada Rusiya-Türkiyə tarazlığını ikincinin xeyrinə dəyişdirir. Rusiyanın da Türkiyədən gözləntisi var, bu, ondan ibarətdir ki, Ankara Ukrayna məsələsində Moskvanın maraqlarına zidd addımlar atmasın. Suriyada Rusiya-Türkiyə arasında buzlaqların əriməsi Ankaranın təsir imkanlarını gücləndirə bilər və İran bunu həzm edə bilən siyasətdən uzaqdır".

# Pandemiya hələ bitməyib

## Yoluxma sayı artarsa, qadağalar tətbiq olunacaq



İnfeksionist: "Buster doza olduqca əhəmiyyətlidir. Bu bizi koronavirusa yoluxmaqdan, yoluxduqda isə xəstəliyi ağır keçirməkdən qoruyur"

**COVID-19 infeksiyasının "Omikron" ştamı yenidən dünyada dominantlıq edir. Virusa yoluxanların sayının günü-gündən artması səlahiyyətli qurumları həyəcan təbili çalmağa vadar edib. Artan koronavirus xofu fonunda Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) payız fəsli üçün "buster" doza ilə bağlı tövsiyələr verib.**

ÜST-nin Azərbaycan Nümayəndəliyindən verilən məlumata görə, COVID-19 vaksinasiyası ilə bağlı cari vəziyyət qurumun Avropa regionunda xəstəliyin mövcud və proqnozlaşdırılan epidemiologiyası və "Omikron" ştamına qarşı peyvəndin effektivliyinə dair sübutlara əsaslanaraq, müvafiq qrupların COVID-19 peyvəndinin ilkin 2 dozası və 1-ci "buster" dozasının qəbul edilməsi ilə bağlı səyləri gücləndirməyi tövsiyə edir.

Qeyd olunub ki, əlavə qorunmanı təmin etmək, ağır xəstələnmə, xəstəxanaya yerləşdirmə və COVID-19-dan ölüm riskini minimuma endirmək və səhiyyə xidmətlərinin davamlılığını maksimum dərəcədə artırmaq üçün ölkələr bu addımları atmalıdır.

5 yaşdan yuxarı orta və ağır immun çatışmazlığı olan şəxslərə və onların yaxın təmaslarına ikinci "buster" dozanın tətbiq edilməsi, yaşlılar, tibb işçiləri və hamilə qadınlar da daxil olmaqla, xüsusi risk qruplarına ikinci "buster" dozanın tətbiq edilməsi, mümkün olan hallarda COVID-19 və mövsümi qripə qarşı peyvəndlərin birgə tətbiqinin nəzərdən keçirilməsi tövsiyələr arasında yer alıb.

"Yeni infeksiya epidemiyası onsuz da məşğul olan səhiyyə sistemlərinə və tibb işçilərinə əlavə təzyiq göstərir. Koronavirusun "omikron" ştamının yeni mutasiyaları bütün dünyada yayılmağa davam edir, ölkələr pandemiya ilə mübarizə üçün maska rejiminə qayıtmalıdırlar". Bu sözləri isə Ümumdünya Səhiyyə Təşkilatının icraçı direktoru Tedros Adhanom Qebreyesus deyib.

O, əlavə olaraq son günlərdə koronavirusa yoluxma və virusdan ölüm hallarının artdığını deyib.

**İnfeksionist Vasif Əliyev isə "Şərq"ə bildirib ki, yoluxma sayında artım müşahidə olunsa da, koronavirusla bağlı vəziyyət stabildir. Onun sözlərinə görə, rəqəmlərin yüksək həddə çatacağı payıza proqnozlaşdırılır:**

"Nəzərə alsaq ki, Azərbaycanla qonşu ölkələrdə də yoluxma sayı artır. Xəstəliyin ilk forması ilə indiki vəziyyəti müqayisə etsək, ağırlaşma dərəcəsi çox aşağı düşüb. Xəstəxanaya yatış ehtiyacı da əvvəlki dövrlərdə olduğu kimi deyil. Peyvənd faktoru da əsas məsələlərdəndir. İstər xəstəliyi keçirib sağalan, istərsə də peyvənd vurduran şəxslərdə yaranan immunitet onları qoruyur. Cəmiyyətdə qoruyucu antitelin olması gələcək fəsadlardan bizi qoruyacaq ən əsas amillərdən biridir".

**V.Əliyev deyib ki, yoluxma dinamikası artarsa, lokal məhdudiyyətlərin tətbiqinə başlanacaq:** "Pandemiya hələ bitməyib. Buna görə də insanlar ehtiyatlı olmalıdır. Ölkəmizdə də yoluxma sayı dünyadakı yoluxma sayı ilə paralel gedir. Yoluxma artarsa, Operativ Qərargah məhdudiyyətlər və qadağalar tətbiq edə, qərarlar verə bilər".

İnfeksionist buster dozanın olduqca əhəmiyyətli olduğunu deyib. Onun sözlərinə görə, birinci və ikinci doza vaksin xəstəlikdən qorunmaq üçün vurulur: "Müəyyən müddətdən sonra isə qanda anticisimlərin miqdarı azalır. Bu zaman virusa qarşı qoruyuculuq olmur. Buster doza anticisimlərin qanda miqdarını yüksəldir. Orqanizmimizdə yenidən virusa qarşı immunitet yaranır. Bu isə bizi koronavirusa yoluxmaqdan, yoluxduqda isə xəstəliyi ağır keçirməkdən qoruyur".

V.Əliyevin fikrincə, buster doza vaksindən sonra yenidən peyvənd vurdurmaq insanların öz seçiminə bağlıdır. Onun sözlərinə görə, hələlik elmi tədqiqatlar buster dozanın virusdan qorunmaq üçün yetərli olduğunu təsdiqləyir.

**Şəymən**



# Göyçayda 15 nəfər yas mərasimində zəhərlənib

## Zəhərlənən şəxslərdən bir neçəsi uşaqdır

**Göyçay rayonunda qidadan kütləvi zəhərlənmə qeydə alınıb.**

**Hadisə rayonun Hacıağabəyli kənd sakini Azər Quliyevin anasının yas mərasimində olub.**

Axşam saat 20:00 radələrində məclis iştirakçılarından təxminən 15-ə yaxın şəxsin halı qəfildən pisləşib.

İshal və qusma əlamətləri olan bu insanlar təcili olaraq Göyçay Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb.

Hazırda onların müayinə və müalicəsi üçün tədbirlər görülür.

Zəhərlənən şəxslərdən bir neçəsi uşaqdır.

İnsanların nədən zəhərləndiyi hələlik dəqiq bilinmir.

Faktla bağlı Göyçay rayon Prokurorluğu tərəfindən araşdırma aparılır.

**Göyçayda yas mərasimində qidadan zəhərlənən şəxslərin adları məlum olub.**

APA-nın yerli bürosunun xəbərinə görə axşam saatlarında zəhərlənən şəxslər Göyçay Rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib.

*Rayonun Hacıağabəyli kənd sakinlərindən zəhərlənən şəxslərin adı aşağıdakılardır:*

Eminova Əsli Paşa qızı(1966);
İbrahimova Kifayət Müğdət qızı (1965);
Kərimova Aybəniz İbrahim qızı (1987);
Miriyeva İfrat İdris qızı (1962);
Quliyeva Esmira Rakif qızı (1985);
Nuriyeva Ürfət Etibar qızı (1987);
Quliyeva İlhamə Bəşir qızı (1970);
Quliyeva Nüşabə Bəşir qızı (1979);
Quliyeva Aidə Bəşir qızı (1979);

*Digər zəhərlənən şəxslər Yeniarx kənd sakinləridir. Onların adları aşağıdakılardır:*

Quliyev Turqut Azər oğlu (2007);
Quliyeva Aydan Azər qızı (2005);
Quliyeva Zeynəb Yengibar qızı (2005);
Quluzadə Gülşən Elsevər qızı (2020);
Quluzadə Ayşən Elsevər qızı (2020);

*Xatırladaq ki, zəhərlənən şəxslərinin vəziyyəti yaxşıdı, müalicələri davam etdirilir.*

# Bakı Paşinyanın son siyasətini ciddi izləməlidir

## İrəvan Ankara ilə yaxınlaşaraq, daxildə müxalifəti zəiflədib Azərbaycanla sülhə nail olmağa çalışacaq

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Ermənistanın Baş naziri Nikol Paşinyanın ilk dəfə telefon danışığı müzakirə olunmaqdadır. Ərdoğanın ofisindən yayılan rəsmi məlumatda bildirilib ki, hər iki lider bir sıra məsələlərdə razılaşma əldə edib.**

Bu razılığa görə, üçüncü ölkələrin vətəndaşları Ermənistan-Türkiyə sərhədindən istifadə imkanı əldə edəcəklər. Liderlər Ermənistanla Türkiyə arasında hava yükdaşımalarının ən qısa zamanda qurulması barədə də razılığa gəliblər. Xatırladaq ki, bundan bir həftə öncə Türkiyə və Ermənistanın xüsusi nümayəndələri arasında Vyanada 5-ci görüş baş tutub. Ekspertlərə görə, təmasları və telefon danışığını ikitərəfli dialoqda və danışıqlarda kiçik irəliləyiş saymaq olar. Hətta yaxın gələcəkdə iki ölkə liderinin beynəlxalq konfrans çərçivəsində görüşəcəyi də istisna edilmir. Böyük ehtimalla görüşü hazırlamaq üçün hər iki ölkənin diplomatlarına tapşırıq verilib.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistan-Azərbaycan əlaqələrində Türkiyə faktoru önə çıxır. Analitikin fikrincə, Ermənistanın Azərbaycanla danışıqlar prosesindən yayınması növbəti hərbi eskolasiyaya gətirməyəcək**: "Baş nazir Nikol Paşinyan hazırda Türkiyə ilə yaxınlaşmaq siyasəti aparır. Türkiyə ilə münasibətlər normallaşarsa, İrəvan Azərbaycanla ikitərəfli masa ətrafında əyləşəcək. Ankara bu istiqamətdə Ermənistan hakimiyyəti ilə danışıqlar aparacaq. Məhz Paşinyan hazırkı mərhələdə Brüssel danışıqlarından çəkinir və Kremlin ordu daxilində mövqeyindən çəkinərək sülh anlaşılmasına getmir. Baş nazir ölkə daxilində Rusiya bağlı müxalifəti zəiflətmək siyasəti həyata keçirir. Ordu daxilində Rusiyaya bağlı qruplar da qalmaqdadır və onlar "Qarabağ klanı"na dəstək verirlər. Paşinyanın bütün cəhdlərinə baxmayaraq, daxildən və xaricdən təzyiqlər onu Brüssel formatında əldə olunan razılaşmaları yerinə yetirməməyə sövq edir. Ona görə də Paşinyan daxildə ordunun müəyyən qrupunun siyasətə təsirini zəiflədəcək və müxalifətin imkanlarını parçalayacaq. Artıq parlamentdə bunu etməyə başlayıb".

*Həmsöhbətimiz vurğulayıb ki, rəsmi Bakı Paşinyanın son siyasətini yaxından izləməlidir:* "İrəvan Ankara ilə yaxınlaşaraq, daxildə müxalifəti zəiflədib Azərbaycanla sülhə nail olmağa çalışacaq. Ermənistanda daxili siyasi vəziyyət mürəkkəb və həssasdır. Müxalifətin etirazları fiaskoya uğradığına görə, "B" planı işə salınıb. Türkiyə ilə sülh anlaşılmasının qarşısını almaq üçün hərbi çevrilişə cəhd oluna bilər. Ermənistanla siyasi-hərbi müstəvidə əsas məsələdə Prezident İlham Əliyevin əsas strateji planı sülhə nail olmaq və İrəvanı buna məcbur etməkdir. Hətta Ermənistan və Azərbaycan liderlərinin birbaşa telefon danışıqlarına da ehtiyac var. İkitərəfli telefon diplomatiyası bir çox məsələləri yoluna qoya bilər. İkitərəfli danışıqlarda Ermənistan Qarabağ iddiasından geri çəkiləcək. Hətta qarşılıqlı ərazi bütövlüyünün tanınması da mümkündür. Növbəti aylardan Ermənistan-Azərbaycan münasibətlərinə aydınlıq gələcək".



"Hətta Ermənistan və Azərbaycan liderlərinin birbaşa telefon danışıqlarına da ehtiyac var. İkitərəfli telefon diplomatiyası bir çox məsələləri yoluna qoya bilər"

**İsmayıl Qocayev**

# Dördtərəfli danışıqların nəticəsi müsbət sonluqla bitəcək

## Milyonlarla insanın taleyi İstanbul görüşündən asılıdır



### *Ukraynanın blokadada qalan taxıl ehtiyatı mütləq ünvanına çatdırılmalıdır*

**Ankara, Moskva, Kiyev və BMT arasında taxılla bağlı yeni görüşün ilkin tarixi iyulun 20-21-nə təyin edilib. Görüşə dair yeni şərtlər diplomatik kanallarla razılaşdırılacaq. İlkin olaraq 20-21 iyul tarixi seçilib.**

Bundan əvvəl İstanbulda Rusiya, Ukrayna, Türkiyə və BMT-nin hərbi idarələrinin nümayəndələrinin qapalı iclası keçirilib. Görüşün Türkiyə hərbi obyektlərindən birinin ərazisində keçirildiyi, mətbuatın tədbiri işıqlandırmasına icazə verilmədiyi bildirilib. Rusiya, Ukrayna, Türkiyə və BMT nümayəndələri arasında aparılan dördtərəfli danışıqların nəticəsi Ukrayna taxılının ixracına nəzarət etmək üçün Koordinasiya Mərkəzinin yaradılması haqqında qərar olub. Tərəflər ticarət gəmilərinin marşrutu boyunca təhlükəsizliyin təmin edilməsi məqsədilə naviqasiyaya birgə nəzarət mexanizmlərinin formalaşdırılması barədə razılığa gəliblər. Türkiyənin Müdafiə naziri Hulusi Akar bildirib ki, gələn həftə Rusiya ilə Ukrayna arasında taxıl ixracına dair sənədin imzalanması gözlənilir. O, nümayəndə heyətləri arasında danışıqların müsbət və konstruktiv keçdiyini, İstanbulda koordinasiya mərkəzinin yaradılması ilə bağlı əsas texniki məsələlər üzrə razılığın əldə olunduğunu diqqətə çatdırıb. ”The Wall Street Journal” mənbələrə istinadən Ukrayna taxılının ixracına dair sövdələşmənin təfərrüatlarını açıqlayıb. Nəşr yazır ki, saziş atəşkəs şərti ilə Ukrayna gəmilərinin müşayiəti ilə karvanlarda taxılın Ukraynanın üç limanından ixracının mümkünlüyünü nəzərdə tutur. Bundan əlavə, Türkiyə Silahlı Qüvvələri limana gələn boş gəmiləri yoxlayacaq.

**Politoloq Azər Qasımov ”Şərq”ə deyib ki, hazırda Ukrayna dünya taxıl təhlükəsizliyinin mərkəzi sayılır. Analitikə görə, bütün ölkələr öz hesabatlarını ərzaq istehsal edən ölkələrin müəyyən olunduğu qlobal göstəricilərə əsasən aparırdı:** ”Hər ölkə istehsal etdiyi ərzağın və ya xammalın keyfiyyətini və miqdarını bu göstəricilərə əsasən planlaşdırırdı. İndi elə bir şərait yaranıb ki, Ukrayna istehsal etdiyi taxılı Rusiyanın Azov və Qara dənizin ölkəyə sərhəd bölgələrini işğal etdiyi üçün sata bilmir. Daha doğrusu, Rusiya bu satışa imkan vermir. Hətta bir hissəsini oğurlayıb, gizli marşrutlarla ucuz qiymətə digər ölkələrə satırlar. Həmin ölkələr qanuni şəkildə öz normativ paylarını almaq əvəzinə oğurluq taxılı ucuz qiymətə Rusiyadan almağa üstünlük verirlər. Bu da həmin taxılın getməsi nəzərdə tutulan Afrika ölkələrində aclıq yaranmasına səbəb olub. Afrika ölkələri çox vaxt BMT-nin yardım proqramları çərçivəsində Ukraynadan alınan taxıl hesabına gündəlik yaşamlarını sürdürürdülər”.

**Ekspertin fikrincə, Türkiyənin təşəbbüsü və bilavasitə təşkilatçılığı ilə davam edən danışıqlar dördtərəfli görüşü labüd edir:** ”Hesab etmək olar ki, bu görüşlər müsbət nəticə ilə başa çatacaq. Rusiya bu görüşlərdən yəqin ki, özünün bir sıra tələblərinin yerinə yetirilməsini tələb edəcək. Danışıqların mütləq müsbət nəticə ilə başa çatması vacibdir. Çünki milyonlarla insanın taleyi bundan asılıdır. Bu, eyni zamanda, yeni taxıl biçini sezonunun başlaması ilə əlaqədar olaraq anbarların hələ də köhnə taxılla dolu olması ilə əlaqədar olaraq yeni taxılın saxlanmasına yerin olmaması baxımından da əhəmiyyət kəsb edir. Taxılın mühafizə olunmaması bu dəfə təkcə Afrika yox, bütün dünya üçün aclıq təhlükəsi deməkdir. Hesab edirəm ki, Rusiya düşdüyü Ukrayna cəhənnəminə qəsdən digər ölkələri də çəkmək bəhanəsi ilə Ukraynadakı taxıl istehsalına zərbə vurmaqla bütün dünya ölkələrinə zərbə vuracaq qədər alçalmayıb”.

**İsmayıl Qocayev**

**ABŞ tərəfindən Rusiyanın 17 hissəyə parçalanmasını əks etdirən xəritə yayılıb. Bunun ardınca Türkiyə-Ermənistan liderləri arasında telefon danışıqları baş tutub. Sonra Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan Ankara-İrəvan arasındakı münasibətlərlə bağlı müsbət mesajlar verib.**



# Çin niyə Rusiyanın parçalanmasını istəyir?

## Yaranmış vəziyyət onu göstərir ki, Kreml üçün daha ciddi təhdidlər hələ qabaqdadır

Analitiklərə görə, baş verənlər indiki məqamda çox vacib hesab edilə bilər. Çünki prosesləri diqqətlə izlədikdə və hadisələri doğru şəkildə təhlil etdikdə görmək olar ki, ABŞ və Böyük Britaniya başda olmaqla ümumilikdə Qərbin əsas hədəfi yenidən dizayn edilən dünya siyasi sistemində Rusiyanın əsas aktor olaraq tamamilə aradan götürülməsinə hesablanıb. Digər tərəfdən yaranmış əlverişli şəraitdən istifadə etməklə Türkiyənin hədəfinin Rusiyadan sonra yaranması gözlənilən boşluğun doldurulmasıdır. Məhz buna görə də son zamanlar Türkiyənin Ermənistanla danışıqlar prosesini intensivləşdirmək cəhdləri hiss edilməkdədir. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Rusiya və Ukrayna prezidentləri ilə ardıcıl şəkildə telefon danışıqları aparması ondan xəbər verir ki, deməli, Türkiyə təkcə Yaxın Şərqdə yaxud Şimali Afrikada deyil, eyni zamanda Cənubi Qafqazda, Qara dənizdə, Balkanlarda, Mərkəzi Asiyada da ciddi rəqabət vəziyyətindədirlər.

**”Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları” Mərkəzinin sədri Samir Hümbətov bildirib ki, Türkiyənin dünyanın mövcud şərtlərini nəzərə almaqla Ukrayna məsələsində tam dövlət maraqlarına uyğun addım atması yaranmış şəraitdən ustalıqla yararlanmağı bacarmasının göstəricisidir.** Ekspertə görə, Türkiyənin atdığı bu addımlar Rusiyanın heç də ürəyincə olmaması hər vəziyyətdə hiss edilməkdədir. Amma mövcud şərtlər onu vadar edir ki, bəzi məsələlərdə Türkiyənin addımlarına tolerant yanaşsın və vəziyyətin daha da ağırlaşmasına imkan verməsin: ”5 aya yaxındır sanksiyalarla qarşı-qarşıya qalan və iqtisadiyyatının ən çətin dövrlərini yaşayan Rusiya üçün tək təhlükənin Qərb olmadığı bəzi proseslərdən aydın olmaqdadır. Bu ilin aprel ayının sonu, may ayının əvvəllərində Çinin dövlət televiziyası CCTV tərəfindən Rusiyanın bölünmüş xəritəsinin yayımlanması və Rusiya ərazilərinin böyük hissəsinin Çinin nəzarətinə düşməsi əks etdirib. Əlbəttə ki, Çinin dövlət televiziyası CCTV tərəfindən yayımlanmış bu xəritə heç də Rusiya-Çin əməkdaşlığına uyğun gəlmir. Eyni zamanda bu addım onu göstərir ki, hətta uzun illərdir müttəfiqlik münasibətləri qurmuş dövlətlər kimi Çin və Rusiya arasında da gərginlik mövcuddur.

Ona görə də Rusiya Türkiyə ilə münasibətləri normal saxlamaqla balans formalaşdırmağa çalışır. Məhz bu səbəbdən həm Rusiya-Ukrayna danışıqlarında, həm regional məsələlərdə Ukrayna kimi Rusiya da Türkiyənin danışıqlar prosesinə töhfə verməsinə imkan yaratmağa çalışır. Burada digər sual ortaya çıxır; Qərb ölkələri və Çin niyə Rusiyanın parçalanmasını istəyirlər? Qərb ölkələri həm zəngin yeraltı və yerüstü sərvətlərinə görə, həm də Rusiya parçalanarsa Çinə qonşu bölgədə bir neçə dövlətin yaranması baş verəcək ki, bu da Çini çevrələmə siyasətinə imkan yaradacaq. Rusiyanın parçalanmasında Çinin maraqlı tərəfləri isə həm geniş Rusiya ərazilərini ələ keçirtmək, həm zəngin təbii sərvətlərindən istifadə etmək, həm də Şimal qütbünə yol açmaqdır. Nəzərə alsaq ki, hər iki tərəfin əsas məqsədi Rusiyanı parçalamaqdır, o zaman Rusiya üçün ciddi təhdidin qarşıda olduğunu demək mümkündür”.

**S.Hümbətov bəyan edib ki, Rusiya və Çin bəzi regional və beynəlxalq təşkilatlarda, xüsusilə də Şanxay Əməkdaşlıq Təşkilatı və Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının daimi üzvlüyündə birgə fəaliyyət göstərirlər:** ”Onu da yaddan çıxartmaq lazım deyil ki, hazırkı vəziyyətdə Rusiya dünyada ən çox nüvə başlığı olan ölkələrdəndir və zaman-zaman Kreml administrasiyası dövlətə qarşı təhdid yaranarsa ondan istifadəni istisna etmədiklərini bildirirlər. Bir neçə müddət öncə Madriddə keçirilən NATO sammitində qəbul olunmuş növbəti 10 ili əhatə edən strateji sənəddə Rusiyanın ciddi təhdid kimi göstərilməsi də qarşıda bizə yeni gərgin proseslərin olacağını deməyə əsas verir”.

**İsmayıl Qocayev**



# "Qazilərin reabilitasiya proqramları hazırlanmalıdır"

## Elçin Şıxlı: ”Həşərat” məmurlar vəzifələrini yerinə yetirməsələr...”

**Tanınmış tele-jurnalist Mirşahin Ağayev feysbuk hesabında qazi intiharı xəbərlərini yayan medianı tənqid edib. Həmkarımız yazır:**

Hörmətli media nümayəndələri, xahiş edirəm Qazilərin problemləri ilə bağlı mövzularda son dərəcə ehtiyatlı olasınız! Xüsusilə indi. Emosianallığın açıq ”nerv” vaxtlarında. Başlıqlarda, təqdimatlarda diqqətli olun. Sizin say və layk naminə seçdiyiniz başlıqlar qızğın həyəcan halında təhrikedici səciyyə daşıya bilər. Unutmayın ki, bu yolla, bəzi qazilərin intiharçılığını Siz təşkil edirsiz! Ona görə də suisit edəcəyini bildirən Qazinin çıxışının videosunu çəkmək, sonra da hələ bir ardınca düşərək yanğın aktını sona qədər izləmək, çəkilişi sosial şəbəkələrdə yerləşdirmək əvəzinə Qazini fikrindən daşındırın. Bacarsanız yanğın törədilməsində istifadə oluna biləcək vasitələri əlindən zorla da olsa alın. Unutmayın: baş verə biləcək hər özünüqətldə siz də iştirak edirsiz! İntihar mövzusu çox təhlükəlidir. Burda odla oynamaq olmaz! Odlar Yurdu ifadəsinin bizə qürur verən mənasına layiq olmağa çalışaq, özünə od vuranların ocağını manqal kimi yelləməyək! Dövlətin ən qiymətli Tarix Kitablarıdı Qazilərimiz! Kitablara od vurulmasına yol verməyək! Həlli mümkün olmayan problem yoxdur! Dözüm vaxtıdır! Ləyaqət və mərhəmət vaxtıdır! Hər şey sizin əlinizdədir: Alışqan belə!

Mirşahinin media əhlinə müraciəti, peşəkar jurnalistika ilə uyğunluğu sosial media şəbəkələrində uzun-uzadı müzakirələr yaradıb. Mirşahini qınayanlar da, müdafiə edənlər iki tərəfə bölünüb.

**”Ayna-Zerkalo” qəzetlərinin baş redaktoru Elçin Şıxlı ”Şərq”ə bildirib ki, informasiyanı gizlətməyin tərəfdarı deyil:** ”Xəbəri yaymıramsa, jurnalist deyiləm. Minlərlə Vyetnam müharibəsi iştirakçısı Amerika kimi nəhəng bir ölkəyə psixoloji travmalarla qayıtdı. Hətta ABŞ da bunun öhdəsindən tam gələ bilmədi. Zaman tələb olunurdu. Müharibə iştirakçıları, qazilərimiz üçün reabilitasiya proqramı hazırlanmalıdır. Qeyri-Hökumət Təşkilatları (QHT) bu işə qoşulmalıdırlar. Psixoloji cəhətdən elə etməliyik ki, həmin insanlar özlərini cəmiyyətə lazımlı bir vətəndaş kimi hiss etsinlər. Əgər kimsə yeni peşəyə yiyələnmək istəyirsə, onlar üçün xüsusi təlimlər təşkil olunmalıdır. İxtisaslarını artırmalıdırlar”.

**E.Şıxlı vurğulayıb ki, Vətən müharibəsi iştirakçılarımız, Qarabağı azad edən qəhrəman övladlarımızın hər birinə diqqət yetirilməlidir:** ”Onları mütəmadi şəkildə orta və ali təhsil müəssisələrinə dəvət etmək lazımdır. Görüşlərdə savaş zamanı qarşılaşdıqları mənzərələrdən bəhs etməli, nə üçün cəbhəyə getdiklərini gənclərimizə danışmalıdırlar. Beləliklə, qazilərimiz vətənimizə, cəmiyyətimizə xeyir verdiklərini, gənc nəslin tərbiyəsində rol oynadıqlarını anlayarlar. Bunun özü də onlar üçün psixoloji cəhətdən reabilitasiya metodudur. Nahaq yerə müharibə iştirakçılarının ruhdan düşməyinə imkan verməli deyilik. Onların təminat məsələləri daima nəzarətdə saxlanmalı, proses şəffaf aparılmalıdır. ”Həşərat” məmurlar vəzifələrini tam yerinə yetirməsələr, intiharların ardı-arası kəsilməyəcək. Qazilərimiz bizim 30 il həsrətində olduğumuz torpaqları geri qaytarıblar. Xalq həmin igidlərə minnətdardır”.

**Sücayət Mehti**

# Tokayev ən doğru olan addımı atdı

## Qazaxıstan prezidenti Rusiyanı tərk etmiş investorları ölkəsinə çağırır



**Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Rusiya bazarını tərk edən şirkətlərin ölkədə yerləşdirilməsi üçün əlverişli şəraitin yaradılması barədə tapşırıq verib. O, bu barədə hökumətin iclası zamanı deyib: ”Biz investisiya kapitalı uğrunda qlobal mübarizənin şahidi oluruq.**

Rusiyada fəaliyyət göstərən 1,4 minə yaxın şirkətdən demək olar ki, hər ikinci şirkət bazarı tamamilə və ya qismən tərk edib. Hökumət bu şirkətlərin Qazaxıstanda yerləşdirilməsi üçün əlverişli şərait yaratmalıdır”. Tokayev vurğulayıb ki, bu addım Qazaxıstana məhsul istehsalının genişləndirilməsi üçün imkanlar yaradacaq.

**Tokayevin təşəbbüsünü ”Şərq”ə dəyərləndirən iqtisadçı Pərviz Heydərov bildirib ki, Rusiyadan investisiyaların geri çəkilməsi dünyada və regionda investisiya bazarında mübarizəni və rəqabəti daha da kəskinləşdirdi.** Ekspertə görə, bu və ya digər ölkələrdən çıxan investorların digər dövlətlərə yönəlməsi təbii haldır: ”Qazaxıstanın Rusiyadan çıxmış investorları öz ölkəsində görmək istəməsi, bunun üçün səy göstərməsi Moskvanı qıcıqlandıran amil sayılmamalıdır. Bu, normal mövqedir. Qazaxıstan da böyük resurslara sahib, potensialı böyük ölkədir. Keçmiş müttəfiq respublikalar sırasında Rusiyadan sonra Ukrayna və Qazaxıstan qədər böyük potensiala malik ölkə yoxdur. Əgər müvafiq şərait yaradılarsa, Rusiyadan sanksiyaya görə uzaqlaşmış şirkətlər Qazaxıstanda əlverişli mühit görərlərsə, öz bizneslərini Orta Asiya ölkəsinə məmnuniyyətlə köçürə bilərlər. Sizə deyim ki, qazancları heç də Rusiyadan az olmaz. Tokayevin də açıqlaması xarici investorlar üçün bir çağırışdır. Burada qeyri-adi heç nə yoxdur. Rusiyanın Tokayevin çağırışına qəzəblənməsi əsassız və məntiqsiz olar. Rusiyadan çıxmış şirkətlər də öz bizneslərini postsovet ölkələrinə yönəltməkdə maraqlıdırlar. Qazaxıstan keçmiş sovet respublikaları arasında ən əlverişlisidir”.

**İsmayıl Qocayev**

# Qazilər üçün xüsusi komitəyə ehtiyac varmı?

**Deputat Bəhruz Məhərrəmov bildirib ki, qazilər üçün xüsusi komitənin yaradılmasına ehtiyac var. O bildirib ki, ilk növbədə biz ümumi vətəndaşlar üçün kriteriya və prosedurları qazilərə tətbiq etməməli, qazilərə əlahiddə yanaşmalıyıq:**

”Bu mənada hesab edirəm ki, zamanında qaçqın və məcburi köçkünlərə münasibətdə olduğu kimi, qazilərin işləri ilə bağlı komitə, yaxud agentliyin yaradılmasına ehtiyac var. Çünki qazilərin bir qismi, xüsusən baş-beyin travmaları almış insanların psixoloji durumu, səhhətləri xüsusi yanaşma tələb edir. Digər tərəfdən, qazilərin çoxunun problemləri faktiki eyni xarakterlidir və daha az enerji və resursla dövlətin iradəsinə müvafiq olaraq bu problemləri mərkəzləşmiş qaydada həll etmək mümkündür”.

**Qarabağ qazisi, hərbi jurnalist Rey Kərimoğlu deputatın təklifini yüksək qiymətləndirib. O, ”Şərq”ə açıqlamasında qeyd edib ki, millət vəkilinin fikirlərini alqışlayır:** ”Çox sağ olsun. Belə təkliflər illərdir, bizim dilimizdən səslənir, amma eşidən yoxdur. Ümid edirəm ki, millət vəkilinin haqlı, ədalətli və problemin yeganə çıxış yolu olan təşəbbüsünü digər deputatlar da dəstəkləyəcək. Bu, hər kəsə faydalı olacaq”.

**Qarabağ qazisi, ehtiyatda olan XTQ giziri Natiq Mehdiyev isə deputatın təklifi ilə razılaşmayıb:** ”Bununla bağlı heç bir agentliyin, şuranın yaradılmasına ehtiyac yoxdur. Nə qədər şuralar, agentliklər yaradılacaq? Bütün rayonların icra hakimiyyətlərində qazilər və şəhid ailələri üzrə şöbələr var, ”YAŞAT” Fondu var. Sadəcə, bizim ən böyük problemimiz Milli Məclisin qəbul etdiyi qərardır. O qərarda döyüşdən gələn vətəndaşlarımıza heç bir güzəşt və imtiyaz yoxdur.

Adam yaralanıb, sağalıb, əlilliyi yoxdur, yalnız veteranlığı var. Ancaq ona heç bir güzəşt yoxdur. Bunlarla bağlı yeni qərarlar qəbul olunmalı, onlara da bəzi imtiyazlar verilməlidir. Kimsə deyəcək ki, 80 manat imtiyazları var da... 80 manatla kim ailə saxlaya bilər? Əlbəttə ki, heç kim.

Fikrimcə, bəzi tələbələr və qanunlar qüvvəyə minməlidir ki, dövlət və özəl şirkətlərdə işə qəbul zamanı qazilərimizə üstünlük verilsin. Bununla da onların həm maddi durumu, həm də cəmiyyət içində psixoloji vəziyyəti normallaşa bilər”.



**Rey Kərimoğlu:** ”Belə təkliflər illərdir, bizim dilimizdən səslənir”

**Natiq Mehdiyev:** ”Nə qədər şuralar, agentliklər yaradılacaq?”

**Çimnaz Şahlar**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-Kütləvi, Mədəni-Maarif, Təhsil Proqramlarının Hazırlanması**

# Məktəblər hesabat verir

## Kamran Əsədov: "Təhsildə keyfiyyət yüksəkliyinə nail olmaq istəyiriksə, məsuliyyəti bölüşməyi bacarmalıyıq"



**Azərbaycan təhsilinin Avropa təhsil sisteminə uğurlu inteqrasiyasını təsdiq edən faktlar mövcuddur. Orta təhsildə kurikulum sistemi, ali təhsildə Bolonya sistemi artıq uzun illərdir ki, tətbiq edilir. Orta ümumtəhsil məktəblərinin kompüterləşdirilməsi, elektron jurnal və gündəlik sisteminin tətbiqi də Azərbaycan təhsilinin müasir çağırışlara cavab verdiyini təsdiqləyir.**

Həmçinin, ali məktəblərdə imtahanların elektronlaşdırılması, sənədləşmə işlərinin elektron qaydada aparılması da tədris və idarəetmədə müasir metodlardan istifadəni göstərir. Tədris və idarəetmənin elektronlaşdırılmasının nə dərəcədə vacib və lazımlı olduğu pandemiya dövründə daha çox təsdiqini tapdı. Bəzi çatışmazlıqlar nəzərə alınmazsa, ümumilikdə Azərbaycan təhsili də pandemiyanı çox da ağrılı keçirmədi. 2021-2022-ci tədris ilinin yekunlarına baxdıqda təhsil siyasətinin bəlli inkişaf strategiyası üzrə aparıldığı məlum olur. Sözügedən tədris ilində ölkə üzrə 204 ümumi təhsil müəssisəsində elektron jurnal və gündəlik sisteminin tətbiqi davam etdirilib. Bu barədə Təhsil Nazirliyinin məlumatında qeyd olunur. Bildirilir ki, sözügedən təhsil müəssisələri Bakı, Sumqayıt şəhərləri və digər 11 bölgədə yerləşir. Layihənin məqsədi müəssisə üzrə pedaqoji və inzibati-idarəetmə heyəti tərəfindən elektron qiymətləndirmənin səmərəli təşkili və sənədləşmə prosesinin rəqəmsallaşmasıdır. Bu sistem vasitəsilə hər müəssisə üzrə tədris növbələrinin təyin olunması, dərs cədvəllərinin tərtib edilməsi, elektron profillərin tənzimlənməsi və siniflər üzrə şagird məlumatlarının idarə olunması elektronlaşdırılıb. Həmçinin elektron jurnal şagirdlərin müvəffəqiyyət və davamiyyətini, eyni zamanda, mövzular üzrə dərs materiallarının mənimsənilməsi keyfiyyətini təhlil etmək imkanı da yaradır. Tətbiq olunan sistem vasitəsilə valideyn-məktəb və valideyn-müəllim əlaqələrinin əlçatanlığı artırılıb. Hazırda elektron jurnal və gündəlik sistemi 204 təhsil müəssisəsinin 324 min 357 şagird və 23 min 337 müəllimini əhatə edir. Növbəti tədris ilindən daha 158 müəssisədə də bu sistemin tətbiqi nəzərdə tutulur. Bununla da, "Elektron jurnal və gündəlik" sisteminin 536 min 646 şagird və 37 min 448 müəllimi əhatə etməsi proqnozlaşdırılır. Qeyd edək ki, elektron jurnalın funksionallığı ilə bağlı istifadəçilərdən gələn tələb və təkliflər nəzərə alınmaqla hər tədris ilində təkmilləşdirmələr aparılır.

**Tədris ilinin yekunları barədə "Şərq"ə danışan təhsil eksperti Kamran Əsədov qeyd etdi ki, bu günlərdə Bakı Şəhəri üzrə Təhsil İdarəsi tərəfindən "Məktəb hesabatları"nın dinlənilməsinə start verilib. "Məktəb hesabatları"nın dinlənilməsi ilk olaraq Nəsimi, Binəqədi və Nərimanov rayonlarının ümumtəhsil məktəblərini əhatə edib:**

- "Məktəb hesabatları" nədir, nəyə xidmət edir, soruşsanız, deyə bilərəm ki, məktəb hesabatlarının dinlənilməsinin əsas məqsədi ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təşkili, təhsilin keyfiyyətinə birbaşa təsir göstərən metodiki işin düzgün qurulmasının əhəmiyyəti, məktəblərin fəaliyyətində səmərəli idarəetmənin rolunun artırılması, sağlam və yaradıcı mühitin təmin olunması üçün sistemli işin aparılması, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsinin sağlam rəqabətin yaranmasına təsiri, şagirdlərlə işin düzgün qurulması və olimpiada hərəkatının genişləndirilməsi, uşaqların məktəbəhazırlıq təhsilinin təşkili, tam orta təhsil səviyyəsində təmayülləşmənin tətbiqi, digər müvafiq məsələlərin müzakirəsi, təhsil müəssisələrində tədrisin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını və məktəb hesabatlığını təmin etməkdir. İlk "Məktəb hesabatı" paytaxtın 247 saylı tam orta məktəbində keçirilib. Tədbirdə çıxış edən BŞTİ-nin müdiri Mehriban Vəliyeva 2021-2022-ci tədris ilində ümumi təhsilin fəaliyyət istiqamətləri barədə təhsil nazirinin əmrində müəyyən edilmiş əsas prioritet istiqamətlər üzrə görülən işlərdən danışıb, ötən dərs ilinin nəticələrinin təhlilinə diqqətin artırılmasının əhəmiyyəti haqqında fikirlərini bildirib. Həmçinin şagird nailiyyətlərinin artırılması, elektron təhlil sisteminin qurulması, müəllimlərin sertifikasiyası, elektron hesabat bazasının formalaşdırılması, valideynlərlə iş və digər müvafiq məsələlərdən söhbət açıb, yeni yanaşmaları, müasir çağırışların tələblərindən irəli gələn zəruri amilləri diqqətə çatdırıb.

*K.Əsədov bildirdi ki, təhsildə keyfiyyət yüksəkliyinə nail olmaq istəyiriksə, məsuliyyəti bölüşməyi bacarmalıyıq:*

- Bu məsələdə məktəb rəhbərliyi, müəllim heyəti və valideynlər birgə çalışmalıdır. Məktəb rəhbərinin hesabatlılıq, məsuliyyətin bölüşdürülməsi və inkişafın monitorinqi məsələləri daim diqqət mərkəzində saxlanılmalıdır. Hər bir məktəb direktorunun öz fəaliyyətinin təhlilini aparması zəruridir, bunu BŞTİ-nin müdiri də vurğuladı. Həmçinin, məktəbdaxili monitorinq sisteminin düzgün təşkili də böyük əhəmiyyət daşıyır.

Qeyd edək ki, məktəb direktorlarının hesabatları dinlənildikdən sonra Ümumi təhsil sektorunun müdiri Fuad Babayev Nəsimi, Binəqədi və Nərimanov rayonları üzrə ümumi təhsil məktəblərinin tədris göstəricilərinin, həmçinin olimpiada və müsabiqələrin nəticələrinin təhlilinə dair təqdimatla çıxış edib. Sektor müdiri paytaxt məktəbləri üzrə keçirilən layihələr, qiymətləndirmə və monitorinq imtahanlarından danışıb. Keyfiyyətə nəzarət sektorunun müdiri Anar Mustafazadə ümumi təhsil məktəblərində IV və IX siniflərdə keçirilən monitorinq və buraxılış imtahanlarının nəticələrinə aid təqdimatla çıxış edib. Ümumi təhsil məktəblərində təlim keyfiyyətinin artırılması istiqamətində səmərəli yanaşmalar, keyfiyyətə nəzarət məsələlərinə toxunan sektor müdiri ötən dərs ilinin statistik təhlilinə diqqət çəkib. Məktəb direktorlarını maraqlandıran suallara aydınlıq gətirilib, müvafiq mövzular ətrafında fikir mübadiləsi aparılıb. Qeyd edilir ki, "Məktəb hesabatları" üzrə dinləmələrin paytaxtın 12 inzibati rayonu üzrə keçirilməsi nəzərdə tutulur.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Qanun yenidən işlənib, beynəlxalq təcrübədən əlavələr olunub

## "Dövlət Qulluğu Məcəlləsi"nin qəbulu son dərəcə əhəmiyyətli bir məsələdir



**Dövlət qulluğunda hüquqi tənzimləmənin təkmilləşdirilməsi məqsədilə "Dövlət Qulluğu Məcəlləsi"nin layihəsi hazırlanır. Layihənin hazırlanma mərhələsində olduğunu vurğulayan Dövlət Qulluğu İdarəetmə Şurasının üzvü, Milli Məclisin deputatı Nizami Səfərov deyib ki, bu layihənin geniş ictimai müzakirəsinin keçirilməsi nəzərdə tutulur.**

Geniş ictimaiyyət, həmçinin, dövlət qulluqçuları bu layihə ilə yaxından tanış olacaq və təkliflərini irəli sürə biləcək. "Dövlət qulluğu haqqında" Qanun 2000-ci ildə qəbul olunub, 2001-ci ildən qüvvəyə minib və bu Qanunda bir sıra dəyişikliklər edilib. Ancaq qeyd etmək istəyirəm ki, qanun öz sistemliliyini saxlasa da, belə bir Məcəllənin hazırlanması Azərbaycan Respublikasının qanunvericiliyində mövcud olan yeni məcəllələrin hazırlanması istiqamətində atılan mühüm addım olacaq".

Nizami Səfərov qeyd edib ki, Dövlət Qulluğu Məcəlləsinin layihəsi payızda artıq parlamentdə müzakirəyə çıxarılacaq.

**Millət vəkili Fazil Mustafanın "Şərq"ə açıqlamasına görə, "Dövlət Qulluğu Məcəlləsi"nin qəbulu son dərəcə əhəmiyyətli bir məsələdir:** "Biz hər zaman "Büdcə Məcəlləsi", "Ailə Məcəlləsi" kimi qanunların olmasının tərəfdarı olmuşuq. Bu baxımdan "Dövlət Qulluğu Məcəlləsi"nin artıq müzakirəyə hazır olmasını yüksək qiymətləndirirəm.

Bilirsiniz ki, Məcəllə ictimai münasibətlərin müəyyən sahəsini tənzimləyən vahid sistemləşdirilmiş qanunvericilik aktıdır və Məcəllələrin hüquqi qüvvəsi adi qanunlardan üstündür. Məcəllə ayrı-ayrı hüquq sahələrinə aid olan normaları bir araya gətirir. Dövlət qulluğu sahəsinə aid olan bir sıra qanunlar var və bütün bunları bir araya gətirərək birləşdirməyə ehtiyac var. Bir var konkret bir qanuna istinad edəsən, bir də var 7-8 qanuna istinad edib hansısa bir hüquqi aktı tənzimləyəsən. Düzdür, layihədə elə bir ciddi yeniliklər nəzərdə tutulmayıb. "Məcəllə" layihəsində dövlət qulluğu münasibətlərini tənzimləyən müxtəlif normativ hüquqi aktlar sistemləşdirilərək yenidən işlənib və beynəlxalq təcrübə nəzərə alınaraq, yeni müddəalar həmin məcəllə layihəsinə əlavə edilib"

Qeyd edək ki,"Məcəllə" layihəsi 7 bölmə, 26 fəsil, 147 maddədən ibarətdir. Layihədə dövlət qulluğu münasibətlərini tənzimləyən bir çox yeni müddəalar öz əksini tapıb. Belə ki, dövlət qulluğuna dair əsas anlayışlar, vahid dövlət qulluğu sistemi, dövlət qulluğunun prinsipləri, ixtisas dərəcəsinin verilməsi, dövlət qulluğuna qəbul, sərişţə sisteminin tətbiqi, dövlət qulluğu vəzifələrinin tutulmasının ümumi şərtləri, xidməti fəaliyyətin qiymətləndirilməsi, qiymətləndirilmə nəticəsində tətbiq edilən tədbirlər, intizam tənbehi tədbirlərinin tətbiqinə əsaslar, dövlət qulluqçusunun maddi məsuliyyəti, həvəsləndirmə növləri və formaları, dövlət qulluğundan kənar edilmə halları və qaydaları, onun rəsmiləşdirilməsi təkmilləşdirilib.

Bununla yanaşı, ehtiyat kadrların idarə edilməsi, ehtiyat kadrlar siyahısından çıxarılma, dövlət qulluğuna xitam verilmə əsasları və qaydaları, dövlət qulluğuna xitam verilərkən təminatlar, dövlət qulluqçusunun pensiya təminatı, dövlət qulluqçusu ilə bağlanılan əmək müqavilələrinin və əmrlərin sənədləşdirilməsinin uçotu qaydaları, dövlət qulluqçusunun qulluq şəraiti, dövlət qulluqçusunun əlavə təhsili, dövlət qulluğunda etik qaydalar, həmin qaydalara nəzarət, dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət və s. məsələlər yenidən işlənilib. Həmin məsələləri tənzimləyən yeni müddəalar da yaradılıb, mövcud normalar təhlil edilərək daha da təkmilləşdirilib.

**Şəymən**

# Tovuz döyüşlərindən 2 ay sonra Zəfər...

## Arzu Nağıyev: "Bu zəfər gələcək qələbələrimizin təməli olduğunu göstərdi"



**Azərbaycanın Zəfərinin ilk qığılcımlarından olan Tovuz döyüşlərindən iki il ötür. 2020-ci ilin iyulun 12-də Ermənistan silahlı birləşmələrinin Azərbaycanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdikləri təxribatların qarşısı qətiyyətlə alındı. Bir neçə gün davam edən döyüşlər zamanı hücum cəhdi əngəllendi. Düşmənə sarsıdıcı zərbələri endirildi. Azərbaycan Ordusu da döyüşlərdə itki verdi.**

Xalq bu döyüşlər zamanı şəhidlik zirvəsinə ucalan öz mərd, vətənsevər oğullarını general-mayor Polad Həşimovu, polkovnik İlqar Mirzəyevi, mayor Namiq Əhmədovu, mayor Anar Novruzovu, baş leytenant Rəşad Mahmudovu, gizir İlqar Zeynalovu, gizir Yaşar Babayevi, baş çavuş Vüqar Sadıqovu, çavuş Elçin Mustafazadəni, çavuş Nazim İsmayılovu, baş əsgər Elşad Məmmədovu və əsgər Xəyyam Daşdəmirovu böyük izdihamla son mənzilə yola saldı. Qeyd edək ki, həmin il sentyabrın 27-dən etibarən Azərbaycan Ordusu tərəfindən düşmənin təxribatlarına qarşı əks-hücum əməliyyatlarına başlanılıb. 44 gün davam edən Vətən müharibəsi nəticəsində Azərbaycanın 30 ilə yaxın işğal altında olan torpaqları düşmən tapdağından azad olundu.

**Tovuz döyüşlərinin ildönümü ilə əlaqəli "Şərq"ə danışan millət vəkili, sabiq MTN əməkdaşı, siyasi analitik Arzu Nağıyevin fikirlərinə görə,** Azərbaycan Ordusunun əks-hücumu Ermənistanın çirkin niyyətinin qarşısını sərt şəkildə aldı:

"Döyüşlər Azərbaycan-Ermənistan sərhədinin qorunmasının vacibliyini, bütün yüksəkliklərin strateji əhəmiyyətə malik olduğunu və istehkamların qurulmasının strateji əhəmiyyətini göstərdi. Ermənilər ciddi-cəhdlə məhz bu istiqamətdə təxribatlar törədir, atəşkəsi pozur, diversiya qrupları göndərməklə zəif bənd axtarırdılar. Bura dövlət sərhədidir. Ona görə də KTMT-ni, daha dəqiq desək, Rusiyanı çirkin siyasi oyunlara qatmağa çalışırdılar. Bakı-Tbilisi-Qars dəmir yolunun ərazidən keçən hissəsini, neft kəmərlərini daim atəş altında saxlamağa cəhd edirdilər".

**Millət vəkilinin qənaətincə, Ali Baş Komandan İlham Əliyevin bir çağırışına minlərlə vətəndaşın səs verməsi xalqımızın birliyini sərgilədi:** "Əsas məqamlardan biri də istər general, istər əsgər, istərsə də adi vətəndaşın, məmurun, iş adamının, bütün sahələrdə çalışan vətəndaşlarımızın bir səngərdə olması idi. Peşəkar, rəşadətli Azərbaycan Ordusunun, milli kadrlarımızın, müasir texnikamızın, silahlarımızın olması da mühüm bir amil idi.

Tovuz döyüşlərindən 2 ay keçdi. 44 günlük zəfər qələbəsi ilə başa çatan müharibənin də təməli həmin döyüşlərlə qoyuldu. Başqa yol yox idi. Tovuz döyüşləri ölüm-dirim savaşı idi və onun qələbə ilə başa çatması çox mühüm idi.

1988-ci ildən daim erməni təxribatı ilə üz-üzə olan sərhəd kəndlərinin sakinləri şücaət göstərdi. Bu, əsgərlərimizə verilən ən böyük ruh yüksəkliyindən biri idi. Bütün bölgələrdən səfərbər oldular. Bu qələbə gələcək qələbələrimizin təməli olduğunu göstərdi. Çünki geriyə yol yox idi. Ermənilər bir daha başa düşdülər ki, Azərbaycan Ordusunun, xalqının, Ali Baş Komandanının qarşısında tab gətirə bilməyəcəklər. Böyük itkilər verməklə geri çəkilməyə məcbur oldular".

Siyasi analitik sonda bildirib ki, ermənilər hələ də müəyyən təxribatlara əl atır: "Heç bir müsbət nəticə əldə edə bilməyəcəklərini anlayırlar. Çünki biz qalib xalqıq və bu adı daima saxlamaq üçün son qanımıza qədər vuruşmağa hazırıq!".

**Aygün Tahir**

# Ermənistan qanuna dəyişikliyə hazırlaşır

## İrəvan Türkiyə ermənilərinin Ermənistan vətəndaşlığı ala biləcəklərindən əndişələnir

**Ermənistanın Milli təhlükəsizlik xidməti "Vətəndaşlıq haqqında" qanuna əlavə və dəyişikliklərin edilməsi ilə bağlı qanun layihəsini ictimai müzakirəyə təqdim edib. Layihədə "diaspor ermeniləri"nin Ermənistan vətəndaşlığı almaları üçün prosedurların sərtləşdirilməsi nəzərdə tutulur.**

Layihə müəlliflərinin açıqlamalarına görə, xaricdə yaşayan ermənilər üçün vətəndaşlıq alma prosedurunun sərtləşdirilməsinin əsas səbəbləri bölgədəki vəziyyət, Ermənistan vətəndaşlığı alan şəxslərin sonradan ölkəyə gəlməmələri və erməniliyin xeyrinə fəaliyyət göstərməmələridir. Hazırda qüvvədə olan qanuna görə, istənilən xarici ölkədə yaşayan erməni Ermənistana ayaq basan kimi vətəndaşlıq almaq üçün müraciət edə bilər. Ermənistanın Milli təhlükəsizlik xidmətinin qanuna əlavə və dəyişikliklərlə bağlı açıqlamasında isə qeyd olunur ki, əsasən Yaxın Şərq, Suriya, Livan və İordaniyadan gələn və erməni olduqlarını iddia edən şəxslər Ermənistan vətəndaşlığı almaq üçün daha çox müraciət edir. Vətəndaşlıq aldıqdan sonra Ermənistana 4-5 ildə bir dəfə gəlir və yaxud, ümumiyyətlə gəlmirlər.

**Siyasi şərhçi Elçin Mirzəbəylinin qənaətinə görə, "diaspor erməniləri" üçün vətəndaşlıq alma şərtlərinin sərtləşdirilməsinin əsas və təbii ki, açıqlanmayan səbəblərindən biri Milli təhlükəsizlik xidmətinin açıqlamasında dolayısıyla etiraf olunub. Analitikin fikrincə, Ermənistan hakimiyyəti Yaxın Şərq, Suriya, Livan, İordaniya, əsasən Türkiyə, İran və digər müsəlman ölkələrindən olan şəxslərin Ermənistan vətəndaşlığı ala biləcəklərindən ehtiyatlanır:** "Vətəndaşlıq haqqında" qanuna əlavə və dəyişikliklərin Türkiyə ilə münasibətlərin normallaşması, eləcə də Türkiyə-Ermənistan sərhədlərinin minalardan təmizlənməsi fonunda ictimailəşdirilməsi narahatlığın daha çox Türkiyə ilə bağlı olduğu ehtimalını yaradır. Ola bilsin ki, rəsmi İrəvan Türkiyədə yaşayan və öz ölkələrinə bağlı olan ermənilərin Ermənistan vətəndaşlığı ala biləcəklərindən və bu halın kütləviləşəcəyindən əndişələnir. Digər tərəfdən, Suriyada, Liviyada, İraqda baş verən vətəndaş müharibələri bu ölkələrdəki miqrasiya proseslərini nəzarətdən çıxarıb. Bu, sözügedən dövlətlərdə arxivlərin məhv edilməsi nəticəsində vətəndaşlıq üçün müraciət edən şəxslərin erməniliyini dəqiqləşdirən sənədləri əldə etmək mümkün deyil. Məhz bu səbəbdən, qanuna edilən əlavə və dəyişikliklərdə vətəndaşlığın, yalnız diaspor təşkilatları və Ermənistanla sıx əlaqədə olan, "ermənilıyə xidmət edən", yəni erməni olduğu şübhə doğurmayan şəxslərin Ermənistan vətəndaşlığı almalarına üstünlük verilməsi nəzərdə tutulur".



**İsmayıl Qocayev**



## "Bir millət, bir dərman, iki dövlət"

Türkiyənin dərman bazarının önünü açmaqdan çox, monopolistlərin qarşısı alınmalıdır

**Dərman qıtlığı məsələsi aktuallığını qoruyub saxlayır. Bəzi tibb ekspertləri ölkədə dərman qıtlığının səbəbini Rusiya-Ukrayna müharibəsi ilə əlaqələndirir. Bildirilir ki, depolarda preperatların azlığı qoyulan məhdudiyyətlərdən irəli gəlir.**

Bir müddət öncə deputat Fazil Mustafa da dərman sənayesi ilə bağlı problemi Milli Məclisdə səsləndirib.

O, Azərbaycan və Türkiyənin dərman sənayesinin birləşdirilməsi ilə bağlı təklif edib: "Azərbaycan və Türkiyəyə bir millət, iki dövlət deyilir. Bəlkə dərman sənayemizi də birləşdirək? Bir millət, bir dərman, iki dövlət olaq".

**Mövzu ilə bağlı "Şərq"ə danışan həkim, ictimai-siyasi xadim Zəlimxan Məmmədli bildirib ki, əslində dərmanlar mövcuddur, lakin saxtaları çoxdur:** "Monopoliyadan qurtarmaq lazımdır. Avropanın, ən azından Türkiyənin dərman bazarını açmalıyıq. Türkiyə dərmanları müxtəlif yollarla gətirilən preparatlardan qat-qat güclüdür. Dərmanın keyfiyyətini və üzərindəki monopoliyanı qaldırsaq, qiymət siyasətini azad rəqabətə buraxsaq, qiymətlər indikindən kifayət qədər aşağı olacaq. Gürcüstanda qiymətlər Azərbaycandakından bir neçə dəfə ucuzdur. Monopolistlərin əlindəki səlahiyyətlər əllərindən alınmalı, dərmanlara nəzarət dövlətə verilməlidir".

**Aygün Tahir**

# "Qış parkı" keçidini su basıb

Eyyub Hüseynov: "Bir litr belə su itkisinə yol verilməməlidir"





**"Qış parkı" ərazisində, Akademik Milli Dram Teatrının qarşısında yerləşən yeraltı piyada keçidini yenidən su basıb.**

Mediadakı məlumatlara görə, hadisənin səbəbi park ərazisində yaşıllıq ərazinin suvarılması üçün nəzərdə tutulmuş su xəttinin partlaması olub.

Xatırladaq ki, daha əvvəl də sözügedən ərazidə keçidi su basması ilə bağlı xəbərlər verilmişdi.

Bakının mərkəzində, isti yay aylarında belə bir hadisənin baş verməsi çaşqınlıq yaradıb.

**Suyun ilahi qüvvə olduğunu deyən Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov "Şərq"ə bildirib ki, bu hadisə əvvələ əhalinin keçiddən istifadəsini məhdudlaşdırır. İkincisi də burada suyun israf olunmasından söhbət gedir:** "Təəssüflər olsun ki, ölkədə texniki su problemi var. Bağların suvarılması, maşın yuyulması və s. kimi məişət işlərində içməli sudan istifadə edilir. Bu hadisə zamanı da su itkisinin baş verməsi yolverilməzdir. Düşünürəm ki, "Azərsu" və Bakı Şəhər İcra Hakimiyyəti çox sıx inteqrasiyada işləməli və bir litr belə su itkisinə yol verməməlidir. AİB-nin sədri olaraq dəfələrlə "Azərsu"da İctimai Şurada məsələ qaldırmışam ki, biz avtomobil yuyulan yerlərin monitorinqini aparaq və onları məcbur edək ki, maşınları istifadə edilmiş su ilə yusunlar. İçməli su ilə maşın yumaq nadanlıqdır.

Əgər hadisə daha əvvəl də baş vermişdisə, gərək "Azərsu", Bakı Şəhər İcra Hakimiyyəti və yerli icra qurumu elə bir iş aparsın ki, vəziyyət bir daha təkrar olunmasın. Təəssüf ki, ölkədə görülən bu kimi işlər fundamental deyil və təkrarlanır. Analoji hallar yolverilməzdir".

**Nihat Müzəffər**

## Azercell abunəçilərə müraciət etdi

**"Azercell Telekom" MMC bütün abunəçilərini "WhatsApp" tətbiqi, SMS və digər kanallar üzərindən göndərilən şübhəli məzmunlu keçidlərə, sorğu və ismarışlara reaksiya verməməyə çağırıb.**

Şirkətdən bildirilib ki, müvafiq məzmunun Azercell-ə heç bir aidiyyəti yoxdur. Yarana biləcək əlavə xərclərin qarşısını almaq üçün "Azercell Telekom" MMC abunəçilərinə şübhəli zəng və mesajları cavablamamağı, etibar doğurmayan internet saytlardan istifadə etməməyi, həmçinin cihaz və nömrə ilə bağlı təhlükəsizlik tədbirlərinə əməl etməyi, telefonlarını nəzarətsiz qoymamağı, şübhəli məzmunlu müxtəlif oyun, yarışma və s. təkliflərdən yararlanmamağı tövsiyə edir.

## Nadir Bayramlı Türkiyədə efirə çıxmaq üçün maşınını satıb



**ARB TV-nin "Onun Sirri" verilişinin növbəti qonağı müğənni Nadir Bayramlı olub.**

*Müğənni Türkiyədə efirə çıxmaq üçün avtomobilini satmasından danışıb:*

"İlk avtomobilim ağ rəngdə "VAZ 2106" olub. Türk kanallarında efirə çıxmağı, orda da tanınmağı çox arzulayırdım. Artıq Bakıda müəyyən qədər tanınmışdım. "Sevgililər görüşəndə" adlı mahnım populyar olmuşdu. Musiqi albomu da yazdırmışdım, amma hələ çıxmamışdı. Düşündüm ki, Türkiyəyə gedib çalışım ki, o mahnını efirdə səsləndirim. Pulum yox idi, avtomobilimi satmağa məcbur oldum. Qayınım Türkiyədə yaşayırdı, ona zəng vurdum ki, orda efirə çıxmaq istəyirəm. Dedi ki, tanışım var, efirə çıxmağa o kömək edə bilər. O vaxt İzzet Altınmeşenin "İzzet-i ikram" verilişi var idi, biz də ora görüşə getdik ki, bəlkə növbəti verilişdə bizi də dəvət edər. O qrim otağında olanda bizlə görüşdü. Və elə həmin gün efirə çıxardı. Mahnımı oxudum".



## Makron Azərbaycanın əməkdar artistini "Fəxri Legion" ordeni ilə təltif edib

**Fransa Prezidenti Emmanuel Makronun 13 iyul 2022-ci il tarixli Fərmanı ilə Azərbaycan əsilli tanınmış musiqiçi, əməkdar artist Adilə Əliyeva ölkənin ən yüksək hərbi və mülki dövlət mükafatı olan "Fəxri Legion" ordeni ilə təltif olunub.**

Diasporla İş üzrə Dövlət Komitəsindən "Şərq"ə verilən xəbərə görə, Fransa Respublikasının milli bayramı ərəfəsində imzalanan Fərmanda bildirilib ki, pianoçu, klassik musiqi festivalının təsisçisi Adilə Əliyeva musiqi sahəsində 46 illik xidmətinə əsasən bu mükafata layiq görülüb.

Bakı şəhərində anadan olan soydaşımız Bülbül adına orta ixtisas musiqi məktəbini və Pyotr Çaykovski adına Moskva Dövlət Konservatoriyasını bitirib. Onun 50-dən çox ölkədə konsertləri təşkil edilib, məşhur səsyazma studiyalarında 30-dan çox kompakt diski yazılıb. Soydaşımızın konsert proqramına Qara Qarayev, Cövdət Hacıyev, Tofiq Quliyev, Oqtay Rəcəbov, Vaqif Mustafazadə, Arif Məlikov və digər Azərbaycan bəstəkarlarının da əsərləri daxildir. O, "Raxmaninov konsertlərinin ən yaxşı ifaçısı" mükafatına layiq görülüb, "Beynəlxalq VILLA-LOBOS" və "Zaqafqaziya" müsabiqələrinin laureatı olub. Hazırda Fransanın Annemas şəhərində yaşayan Adilə Əliyeva 2001-ci ildən Fransa Beynəlxalq Musiqi Akademiyasının direktorudur. 1996-cı ildən etibarən Adilə Əliyeva adına Pianoçuların Beynəlxalq Müsabiqəsi keçirilir. Fransa və İsveçrədə iki ildən bir təşkil edilən müsabiqə dünyanın müxtəlif ölkələrindən, o cümlədən Azərbaycandan olan istedadları üzə çıxarır, onları tanıdır və təhsillərinin xaricdə davam etdirilməsi üçün şərait yaradır.

**Aygün**

# Azərbaycanda 7 hiss olunan zəlzələ qeydə alınıb



**AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin Elmi-Texniki Şurasının iclası keçirilib.**

AMEA-dan verilən xəbərə görə, ETŞ-nin iclasında çıxış edən RSXM-nin baş direktoru, AMEA-nın müxbir üzvü, professor Qurban Yetirmişli gündəlikdə duran əsas məsələlər haqqında danışıb. İclasda RSXM-nin müvafiq şöbələrinin 2022-ci ilin birinci yarısında apardığı elmi araşdırmalar və tədqiqatların nəticələri, eləcə də mərkəz tərəfindən görülən işlərlə bağlı hesabatlar təqdim olunub.

"Zəlzələlərin tədqiqatı bürosu"nun rəisi, Yer Elmləri üzrə fəlsəfə doktoru Səidə İsmayılova öz çıxışında bildirib ki, 2022-ci ilin birinci yarısında 42 rəqəmsal məlumatlar əsasında seysmikliyin analizi aparılıb. Bu ilin altı ayı ərzində Büro tərəfindən 5747 yeraltı təkan qeydə alınıb. Onlardan 1802-i yerli (Azərbaycan ərazisi), 1617-i regional və 1627-i isə uzaq zəlzələlərdir. Həmçinin bu ilin altı ayı ərzində 701 partlayış qeydə alınıb.

Qeyd edək ki, 2022-ci ilin birinci yarımilliyində Azərbaycan ərazisində maqnitudası 3-dən yuxarı olan 20 zəlzələ qeydə alınıb. Azərbaycan və ona bitişik ərazilərdə 7 hiss olunan zəlzələ qeydə alınıb. Daha sonra RSXM-nin müvafiq şöbə müdirləri çıxış edərək 2022-ci ilin görülən işlərə dair hesabatlarını təqdim ediblər.

*Müzakirələr təqdim olunan hesabatlara dair sualların cavablandırılması və hesabatların qəbul edilməsi ilə başa çatıb.*

## Bakıda 2 yaşlı körpəni oğurlayan qadın məhkəmə qarşısına çıxıb

Gültəkin Muradovanın vəkili işlə tanış olmaq üçün hakimdən vaxt istəyib



**Bakı Ağır Cinayətlər Məhkəməsində paytaxtın Sabunçu rayonunda 2 yaşlı uşağı oğurlamaqda ittiham olunan Gültəkin Muradovanın cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

Trend-in məlumatına görə, hakim Əhməd Quliyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib. Daha sonra Gültəkin Muradovanın vəkili işlə tanış olmaq üçün hakimdən vaxt istəyib. Gültəkin Muradovanın özü isə ittihamda yazılanlarla razı olmadığını deyib. Bildirilib ki, o, ittiham aktını alıb. Qadının özü də İttihamda yazılanlarla tanış olmaq üçün hakimdən vaxt istəyib. Növbəti proses iyulun 21-ə təyin olunub. İttihama görə, 2021-ci il dekabrın 29-da Sabunçu qəsəbəsində oğurlanan 2 yaşlı Məhəmməd Elgün oğlu Şıxəliyevin itkin düşməsi barədə polisə məlumat daxil olub. 2022-ci ilin yanvarın 8-də Sabunçu rayon Polis İdarəsi və 12-ci polis şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən intensiv əməliyyat-axtarış tədbiri nəticəsində Məhəmməd Şıxəliyev tapılıb. Polisin keçirdiyi əməliyyat nəticəsində 2 yaşlı uşağı oğurlayan Beyləqan rayon sakini Gültəkin Muradova həbs edilib. Onun barəsində Cinayət Məcəlləsinin 144-cü (adam oğurluğu) maddəsi ilə ittiham elan edilib.

## Brilliant Dadaşovanın oğlunun 3 min manat cəriməsi var



**Xalq artisti Brilliant Dadaşovanın oğlu Cahad Hacıyev sosial şəbəkədəki paylaşımı ilə diqqət çəkib.**

O, sosial şəbəkədə izləyicilərinin suallarını cavablandırıb. "Ən çox nədən qorxursunuz" sualına isə Cahad belə cavab verib:

"Azadlıqdan məhrum edilməkdən. Buna görə də mənim komendant saatı və karantin qaydalarını pozduğuma görə 3 min manat cərimən var. Azad olmadan yaşaya bilmərəm. Bu dünyada iki növ quş var: 1. Kimləri qəfəsdə doğulub və uçmağı absurd hesab edir. 2. Bəziləri isə azad doğulub və qəfəsi absurd hesab edir".

# "Milliyyet" Azərbaycandan yazdı

Türk mediası nəhəng bayrağımızdan, armudu stəkanda çayımızdan və qutabımızdan bəhs edir

*(Əvvəli səh: 8-də)*



**Türkiyənin "Milliyyet.com.tr" saytı ölkəmiz haqqında maraqlı material təqdim edib. Dünyanın müxtəlif ölkələri və şəhərlərinin bilinməyən özəlliklərini açıqlayan sayt bu dəfə Azərbaycana üz tutub.**

Təqdim olunan material əslində, bildiyimiz məlumatları əks etdirir, birindən savayı. Bu da Dövlət Bayrağı meydanındakı bayrağımızın dünya dövlətlərinin bayraqları arasında ən böyük ölçülərə sahib olmasıdır. Ustad təsadüfdən deməyib "Bayraqları yendirən, hey, hey, bay yurdum!". "Milliyet.com.tr" yurdumuzu tanıdaraq yazır ki, Azərbaycanın məşhur özəlliklərindən biri, bu ölkədə çay mədəniyyətinin formalaşmasıdır. Armudu stəkanda, dişləmə və ya kəllə qənd, limon və növbənöv mürəbbələrlə təqdim olunan çay min-bir dərdin dərmanı sayılır. Çay, həqiqətən də ölkəmizdə ən çox sevilən və ən populyar içkidir. Yeməklərdən qutab qardaş ölkə saytının diqqətini çəkib. Qardaş Türkiyədə "krep", bizdə isə qutab adlanan yemək növü də, məlumdur ki, həm yerli əhalinin, həm də qonaqlarımızın bəyəndiyi qidalar sırasındadır. Bütün restoran və kafelərdə qutab bişirilir və satılır. Xanımlarımız tərəfindən də çox yaxşı bişirilir. Sayt sacüstü qutabın xüsusən ləzzətli olduğunu qeyd edib. Ölkəmizin tarixi abidələri, cazibədar tikililəri də cəlbedicidir. Sayt Xalça Muzeyi barədə məlumat verib, muzeyin yerləşdiyi binanın bükülüb açılmış xalça formasında, nəfis memarlığa sahib olduğunu vurğulayıb. UNESCO-nun mühafizə olunan tarixi abidələr siyahısında yer alan Qız Qalası barədə də məlumat verilib. Təbii ki, Qız Qalası Bakının rəmzidir. Sayt Naftalan vannalarının bir çox xəstəliklərə dərman olduğunu da yazıb. Və nəhayət, dünyanın ən böyük bayrağına sahib olmağımızı qürurla vurğulamalıyıq. "Milliyet.com.tr" qeyd edir ki, paytaxt Bakının Bayraq Meydanındakı dövlət bayrağı 100x50 metr ölçüdə 2 ton ağırlığındadır. Bu da futbol meydançası ölçüləri qədərdir. Bayraq o qədər böyük və ağırdır ki, güclü külək əsəndə onu endirirlər.

**Məlahət**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1953



## "Milliyyet" Azərbaycandan yazdı

### Türk mediası nəhəng bayrağımızdan, armudu stəkanda çayımızdan və qutabımızdan bəhs edir



**Türkiyənin "Milliyyet.com.tr" saytı ölkəmiz haqqında maraqlı material təqdim edib.**

Dünyanın müxtəlif ölkələri və şəhərlərinin bilinməyən özəlliklərini açıqlayan sayt bu dəfə Azərbaycana üz tutub. Təqdim olunan material əslində, bildiyimiz məlumatları əks etdirir, birindən savayı. Bu da Dövlət Bayrağı meydanındakı bayrağımızın dünya dövlətlərinin bayraqları arasında ən böyük ölçülərə sahib olmasıdır.

**Məlahət**

## Yeni variant daha yoluxucudur!

### Türk professor məsləhət görür ki, hətta açıq havada da tibbi maskalardan istifadə edilməlidir



**Koronavirus pandemiyasının geri qayıdacağı ehtimalları artır.**

Şübhələrə əsas verənsə, son günlərdə dünya miqyasında COVİD-19-a yoluxma sayında görünən artımlardır. Son iki həftə ərzində yoluxma sayı 2 qat artıb. "NTV.com.tr" bildirir ki, yoluxucu xəstəliklər üzrə mütəxəssis professor-doktor Bülənt Ərtuğrul qeyd edib ki, yoluxma sayının artmasına səbəb COVİD-19-un üzə çıxmış yeni variant - BA5-in yoluxuculuq gücünün daha da yüksək olmasıdır. Bu variant əvvəlkilərə nisbətən daha da yoluxucu və təhlükəlidir. Professor yoluxma sayının artmasına yay fəslində insanların bir yerdən digərinə səyahət etməsinin, yerdəyişməsinin də səbəb olduğunu göstərir. Həkim məsləhət görür ki, fiziki məsafəni qorumaq mümkün deyilsə, hətta açıq havada da tibbi maskalardan istifadə edilməlidir. Xüsusən də istirahət yerlərində, turistik məkanlarda fiziki məsafə saxlamaq mümkün görünmür. Ona görə də qoruyucu maskalardan mütləq istifadə edilməlidir. Həmçinin, sonuncu vurulan peyvəndin üzərindən 6 ay keçibsə, yenidən peyvənd vurdurmaq məsləhətdir.

**Məlahət**







# Burda 15 dəqiqədən artıq qalmaq olmur

### Çöldə 40 dərəcə isti, içəridə isə 20 dərəcə şaxta var

**Tükiyənin Elazığ bölgəsi, qədim Harput məhəlləsindəki Buz mağaraları qızmar istilərdə həm yerli əhalinin, həm də bölgəyə gələn turistlərin ən çox ziyarət etdiyi yerlərdir.**

"Şərq" "Milliyet.com.tr"yə istinadən bildirir ki, yayın qızmar istilərində - temperatur 40 dərəcəyədək yüksəldiyi günlərdə Buz mağaralarında temperatur mənfi 20 dərəcə olur. Bu səbəbdən də mağaralar əvəzolunmaz məkan sayılır. Amma məsələ burasındadır ki, mağaraya daxil olanlar orada 5 dəqiqədən artıq qala bilmir. Soyuğa görə, Buz mağaraları şəhər mərkəzindən 11 kilometr məsafədədir. 150 metr uzunluğundakı ən böyük mağaranın dərinliklərinə qədər getmək mümkün deyil. Mağaranın girişində içəridən gələn sərin hava insanları cəlb edir, lakin bəlli bir məsafəyədək irəlilədikdən sonra dayanmalı olurlar, çünki mağaranın havası getdikcə soyumağa və dondurucu olmağa başlayır. Belə vəziyyətdə orada çox qalmaq olmaz. Uzaqbaşı 5 dəqiqə dayanmaq mümkündür. Gələnlər əksər hallarda mağaraya baş vurub, qısa müddət sonra çölə çıxır, amma buz kütləsi götürmədən də getmirlər. Mağaralara gələnlərin qazancı bir neçə dəqiqəlik sərinlik və özləri ilə apardıqları buz parçaları olur. Buz parçalarından içməli suyu sərinlətmək üçün də istifadə edilir. Mağaraların ətrafının abadlaşdırılmasına ehtiyac olduğunu deyən yerli əhali buranın gəlirli turizm məkanı ola biləcəyinə inanır.

**Məlahət**








# Son ümid yeri...

### Dünyanın ən təbii toxumları "Qiyamət anbarı"na daşınır

**Dünyanın bir çox ölkələrində fermerlər yerli toxum tapa bilmirlər.**

Hazırda arxeoloji qazıntılar zamanı təkcə arxeoloji mənbə axtarılmır, həmçinin geni dəyişdirilməmiş, təbii toxum axtarılır. Qida məsələləri üzrə mütəxəssis Ağa Salamovun sözlərinə görə, qardaş Türkiyədə Göbəkli Təpə deyilən yerdə buğda toxumu tapdılar. Bu toxumu əkəndən sonra gözəl nəticələr əldə olundu və həmin toxumu Norveçin Svalbald adalarında yerləşən toxum anbarına daşıdılar: "Ümumiyyətlə, dünyanın bütün təbii toxumlarını bu anbara daşıyırlar və bizə hibrid toxumlar satılır, organik olanlar isə orada mühafizə edilir. Nə vaxtsa toxum tükənərsə və ya hansısa fövqəl durumlarda ondan istifadə edəcəklər. Amma bizə verəcəklərmi? Yaxud kimlərə veriləcək? Bu sualın cavabı müəmmalıdır". A.Salamovun sözlərinə görə, dünyada "Qiyamət anbarı" kimi tanınan bu yerin 130 metr dərinliyində tikilən anbar təbii fəlakətlərə belə dözümlü yerdir: "Orada 980 min çeşid toxum -18°C də saxlanılır. Bu temperatur toxumların ömrünün uzanmasına gətirib



çıxarır. Bu toxum anbarı təbii ki, bütün yer kürəsində yaşayan insanları düşünərək tikilməyib. Bu toxum anbarı, süni fəlakətlər, süni qıtlıq, süni yaradılmış xəstəliklərdən sağ cıxa bilən insanlar üçündə planlaşdırılmayıb. Bu toxum anbarı, özlərini ari irq hesab edən ailələr və onlara qul olan cüzi insan sayı üçün planlaşdırılmış bir layihədir. Şimal buzlu okeanının sürətlə əriməsini nəzərə alsaq, o zaman bu toxumların da hansı zəhərlənməyən torpaqlarda əkiləcəyi də bəlli olur".

**Şəymən**

## Demet Özdemir koronavirusa yoluxub

### Toy hazırlıqları yarımçıq qaldı

**Müğənni Oğuzhan Koçla evlilik hazırlıqları edən aktrisa Demet Özdemir koronavirusa yoluxub.**





Axşam.az türk mediasına istinadən xəbər verir ki, cütlük avqustun 28-də nikah masasına oturmağa hazırlaşır. Demet sosial şəbəkə hesabında xətsəliyi ilə bağlı paylaşım edərək toyun təxirə düşməyəcəyini vurğulayıb:

"Üç ildir heç yoluxmamışdım, indi koronavirus oldum. Heç nəyi təxirə salmayacağıq. Çox ağrılıdır və ağır keçirirəm. Müalicəm davam edir. Yaxın günlərdə sağalıb qayıdacam".

*O, əlavə edib ki, yarımçıq qalan toy hazırlıqlarına sağalan kimi davam edəcək.*

## Reyhan çayının 4 faydası

### Tənəffüs sağlamlığını inkişaf etdirir

**Reyhan tənəffüs sistemi üçün əhəmiyyətli dərəcədə yaxşıdır.**



Reyhan, antibakteriyal, detoksikasiya və iltihab əleyhinə xüsusiyyətləri ilə tənəffüs yollarınızı təmiz saxlamağa kömək edir. Xəstəliyə yol aça biləcək toksinləri uzaqlaşdırır.

Bununla yanaşı bəlğəmi təmizləyən təsiri də var. Bronxit və astma simptomlarını rahatlaşdırmaq üçün bəlğəmdən xilas olmanıza kömək edir.

Əlavə olaraq, immuniteti gücləndirdiyi üçün, soyuqdəyməyə qarşı təsirli bir həlldir.

**Böyrəklərinizi qoruyur**

Bu çay böyrək funksiyalarını dəstəkləmək üçün idealdır. Xüsusilə böyrək toxumasında çox maye və toksin varsa xilas olmanıza kömək edəcək.

Reyhanın iltihab əleyhinə olan təsiri, böyrəklərinizin düzgün işləməsinə kömək edir, infeksiya və böyrək çatmazlığını əngəlləyir.

**Stresslə mübarizə aparır**

Çayından gələn təbii reyhan parçaları, stress önləyici bir vasitə kimi effekt göstərir və bir neçə dəqiqə içində həm fiziki, həm də zehni olaraq sizi rahatlaşdırır. (milli.Az)

Kiçik miqdarlarda istehlak etmək, stress hormonu olan kortizolun həddindən artıq istehsalını dayandırmağa köməkçi olur. Müsbət endorfinlərin ifraz olunmasını artırır.

**Ağız infeksiyalarına mane olar**

Reyhan çayının antimikrob tərkibi, ağızdaxili infeksiya və xəstəlik səbəbi olan siqaretə qarşı qoruyucu baryer meydana gətirir. Ağızın dibini, künclərini təmizləyir və bakteriyaların çoxalmasını təmin edən arpdən xilas olmanıza kömək edəcək.

Pis nəfəs və diş əti iltihabı üçün ev istehsalı dərman olaraq belə istifadə edilə bilər. Pis qoxunu yox edir və iltihabı azaldır.

## Məşhur aşpaz "TikTok"u fəth edib

### 23 yaşlı müsəlman qızın 7,5 milyon izləyicisi və 80 milyon baxışı var

**Cəmi 23 yaşında Abir Əl-Saqir sosial mediada ən məşhur aşpaz kimi "TikTok"-u fəth edib.**





Moderator.az-ın xəbərində deyilir ki, hazırda bu müsəlman aşpazın platformada 7,5 milyon izləyicisi və 80 milyon baxışı var.

Hicablı qız qeyri-adi xörəkləri ilə tamaşaçıları özünə cəlb edib. Abir seçdiyi ölkənin ənənəvi paltarlarını geyinərək və onun mədəniyyəti ilə yaxından əlaqəli musiqi ilə videonu müşayiət edərək dünyanın hər yerinə aid reseptlərlə yemək bişirir.

Livanlı qadın xüsusilə zərifliyi, sadəliyi, detallara diqqəti və hər şeydən əvvəl təxəyyülü ilə tanınır və bu səbəblərdən "Disneyin ərəb şahzadəsi" ləqəbini qazanıb.

*Müsəlman qadının videolarında ərəb mədəni irsinə xüsusi diqqət yetirilir.*

## İspaniyada köpəkbalığına görə dörd çimərlik bağlanıb



**İspaniyanın Barselona əyalətində köpəkbalığının sahil yaxınlığında görünməsi ilə əlaqədar dörd çimərlik bağlanıb. Trend-in məlumatına görə, bu barədə Sices bələdiyyəsinin "Twitter" səhifəsi bildirib.**

***Qeyd olunub ki, köpəkbalığı sahilə 100 metrədək yaxınlıqda görünüb. Təhlükəsizlik məqsədilə bölgədə suya giriş müvəqqəti qadağan edilib.***

## 15 yaşında milyonçu oldu

### Məktəbli qız həftəlik 25 min dollar xərcləyir



**Amerikalı məktəbli İzabella Barrett moda brendi yaradıb və 15 yaşında milyonçu olub.**

**Hazırda sahibkarın sərvəti 2 milyon dollar, həftəlik xərclərinin məbləği isə 25 min dollardan çoxdur.**

**Oxu.az xəbər verir ki, məktəbli qızın geyim və zərgərlik brendi bir neçə ildən sonra populyarlıq qazanıb.**

**Uğurlu biznesi sayəsində Barret helikopterlərdə uçur, yaxtalarda vaxt keçirir, sosial şəbəkələrdə bahalı zinət əşyaları nümayiş etdirir və nahar üçün lobster sifariş edir. Bundan əlavə, o, tez-tez Nyu-York Moda Həftələrində görünür, gözəllik müsabiqələrində, eləcə də məşhur Amerika kanallarında müxtəlif televiziya şoularında iştirak edir.**

## Eddi Mörfinin qızı ərə getdi

### Toydan görüntülər sosial şəbəkədə yayılıb



**Məşhur amerikalı aktyor Eddi Mörfinin qızı Bri aktyor Maykl Ksavyerə ərə gedib.**

**Axşam.az xəbər verir ki, toydan olan görüntülər sosial şəbəkədə yayılıb. Mərasim Beverli Hillsdəki malikanədə baş tutub. Toyda aralarında məşhurların da olduğu 250-yə yaxın qonaq iştirak edib.**

***Qeyd edək ki, Mörfinin ümumilikdə 10 övladı var.***